www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17 fevral 2016-cı il Çərşənbə № 37 (6358) Qiyməti 60 qəpik

**Xəbər**

## Beyləqanda ata 6 yaşlı oğlunun boğazını kəsdi - şok səbəb

yazısı səh.12-də

**Gündəm**

### Kəmaləddin Heydərov tikinti bumunun başlanacağının anonsunu verdi



Nazirin tikinti sektorunda fəaliyyət göstərən sahibkarlarla görüşündə verdiyi açıqlamalar yeni mərhələnin startı hesab edilir

yazısı səh.4-də

### Ermənistanın əhalisi 600 min azalıb

yazısı səh.2-də

### Gülər Əhmədovanın məhkumluğu götürülmədi

yazısı səh.3-də

*Mehman Əliyev:*

### "Azərbaycan dəyişikliklərə doğru gedəcək"

yazısı səh.6-da

### Ali Məhkəmə hüquq müdafiəçisini həbsdə saxladı

yazısı səh.3-də

### "Lotu Cavanşir"in məhəlləsində bir gün...

yazısı səh.15-də

### Döyülərək öldürülən jurnalistin ilkin izahatı itib

yazısı səh.3-də

### Müxalifətdən qocaların YAP-a buraxılmamasına reaksiya

yazısı səh.10-da

### Davudoğlunun söylədiyi həqiqət - rəsmi Bakı məqsədli susur...

yazısı səh.8-də

### Yeni iş yerləri, yoxsa imitasiya?

yazısı səh.13-də

### Ermənistan və Rusiya Qarabağın ortaq işğalçıları kimi

yazısı səh.11-də

## Ərdoğanın Bakı səfəri ərəfəsində şok olay

# AZƏRBAYCANLI NAZİR MÜAVİNİNİN SURİYA AÇIQLAMASI ARANI QARIŞDIRDI - rəylər

Araz Əzimovun Bəşər Əsədi dəstəkləməsini müxalifət "Türkiyəyə və sivil dünyaya qarşı xəyanət" kimi qiymətləndirir, onun istefası tələbləri səsləndi; iqtidaryönlü deputat nazir müavinini müdafiə etdi...




yazısı səh.9-da

# Komitə sədrinin adı 170 minlik rüşvət qalmaqalına qarışdı

Dələduzluqda adı keçən aparat rəhbəri İstanbula qaçıb; Şəmkirin icra başçısı müavininin də AQUPDK xətti ilə təyinatı iddiası ortaya çıxdı

yazısı səh.10-da



*Razi Nurullayev:*

### "Əli Kərimlinin gizli görüşlərinin videosu var"

yazısı səh.4-də



Leyla Əliyeva

### Mühacir politoloq anasının yasına gələ bilmir

yazısı səh.7-də



Alper Coşqun

### Türkiyənin Azərbaycandakı səfiri "Yeni Müsavat"a danışdı

yazısı səh.5-də



## Dövlət Təhlükəsizlik Xidmətinə yeni səlahiyyət verildi

**Dövlət Təhlükəsizlik Xidmətinə yeni vəzifə həvalə olunub. APA-nın məlumatına görə, bu, Azərbaycan prezidenti İlham Əliyevin "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Qanunun tətbiqi barədə 15 fevral 2015-ci il tarixli fərmanında əksini tapıb.**

Martın 1-dən qüvvəyə minən yeni İnzibati Xətalar Məcəlləsinə əsasən özəl mühafizə müəssisəsinə və ya hüquqi şəxsin mühafizə bölməsinə mühafizəçi vəzifəsinə işə qəbul edilən namizəd barədə işəgötürən tərəfindən 3 gün müddətində müvafiq icra hakimiyyəti orqanına məlumat verilməməsinə görə fiziki şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə, vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər dörd min manatdan beş min manatadək məbləğdə cərimə ediləcəklər.

Fərmana əsasən Azərbaycan Respublikasının ərazisində xarici hüquqi şəxslərə, yaxud əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən təsis edilmiş hüquqi şəxslərə, o cümlədən birbaşa və ya dolayı yolla xarici kapitalın iştirakı ilə yaradılmış hüquqi şəxslərə münasibətdə bu barədə məlumatlar 3 gün müddətində Dövlət Təhlükəsizlik Xidmətinə təqdim olunmalıdır. Bu məlumatların təqdim olunmamasına görə müvafiq icra hakimiyyəti orqanına məlumat verilməməsinə görə fiziki şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə, vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər dörd min manatdan beş min manatadək məbləğdə cərimə ediləcəklər.

## Dünya Bankının region üzrə yeni direktoru Azərbaycana gəlir

**Fevralın 17-də Dünya Bankının Cənubi Qafqaz regionu üzrə yeni direktoru Mersi Tembonun Azərbaycana rəsmi səfəri başlayır. Səfər iki gün davam edəcək. ("Report"). Tanışlıq xarakteri daşıyan səfər çərçivəsində M.Tembonun Azərbaycanın baş naziri Artur Rasizadə və hökumətin iqtisadi blokunun nümayəndələri ilə görüşü nəzərdə tutulur.**

Xatırladaq ki, M.Tembon DB-nin Cənubi Qafqaz regionu üzrə direktoru kimi 2015-ci ilin oktyabrın 1-dən işə başlayıb. O, bu postda 2012-ci ildən sözügedən vəzifəni icra edən və artıq Qana, Liberiya və Sierra-Leone üzrə regional direktor təyin olunan Henri Keralini (Henry Godfrey Rupiny Kerali) əvəz edəcək.

## Azərbaycan neft hasilatı həcmini dondurmayacaq

**Azərbaycan neft hasilatı həcmini dondurmağı planlaşdırmır. Bunu energetika nazirinin müavini Natiq Abbasov deyib. ("Trend"). Onun sözlərinə görə, ümumdünya neft hasilatında Azərbaycanın payı cüzidir və bu, qiymətin formalaşmasına təsir etmir. Buna görə də Azərbaycanda hasilatın dondurulması lazımi effekt verməyəcək.**

Qeyd edək ki, daha əvvəl Rusiya, Səudiyyə Ərəbistanı və Venesuela Dohada keçirilmiş danışıqların yekunu üzrə məlumat veriblər ki, neft hasilatını yanvardakı səviyyədə dondurmağa hazırdırlar. Bunun üçün digər istehsalçılar da bu təşəbbüsə qoşulmalıdırlar.

Xatırladaq ki, 2015-ci ildə Azərbaycan sutkada təqribən 0,8 milyon barel neft hasil edib. Dünya ixrac hasilatı isə sutkada 95,71 milyon barel təşkil edib.


### "Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil, **Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:


# Tenderlərdə yerli mallara 20 faizə qədər güzəşt tətbiq edildi

**Prezident İlham Əliyev "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 19 yanvar tarixli 105 VQD nömrəli qanunun tətbiqi haqqında sərəncam imzalayıb.**




Dəyişikliklərə əsasən, 2-ci maddənin on beşinci abzası aşağıdakı redaksiyada verilir:

"güzəştli düzəliş - satınalan təşkilatın yerli malgöndərənlər (podratçılar) üçün bu Qanunun 36.9-cu və 44.2-ci maddələrinə əsasən tətbiq etdiyi güzəşt;".

**36.9-cu maddə aşağıdakı redaksiyada verilir:**

"36.9. Satınalan təşkilat tender təkliflərini qiymətləndirərkən və müqayisə edərkən tenderin əsas şərtlər toplusunda müəyyənləşdirilən keyfiyyət tələblərinə cavab verən yerli mallar (işlər və xidmətlər) üzrə tender təkliflərinin xeyrinə xaricdən idxal olunan eyni malların təklif edilən qiymətinin 20 faizinə qədər həcmində güzəştli düzəliş tətbiq edir.".

44.2-ci maddənin birinci cümləsi isə aşağıdakı redaksiyada verilir:

"Satınalan təşkilat xidmət təkliflərini qiymətləndirərkən və müqayisə edərkən xidmət təklifləri sorğusunda müəyyən olunan tələblərə cavab verən xidmətləri təklif edən yerli xidmət göstərənlərin xeyrinə bu qanunun 36.10-cu maddəsinə uyğun olaraq güzəştli düzəliş tətbiq edir".



## Azərbaycandan Türkiyəyə 39 ədəd qızıl külçə aparan zərgərlər tutuldu

**Azərbaycandan Türkiyəyə xalis qızıl külçə aparan şəxslər saxlanılıb.**

ANS PRESS-in Türkiyənin hüquq-mühafizə orqanlarına istinadla verdiyi məlumata görə, əməliyyat-axtarış tədbirləri İstanbul şəhərində keçirilib.

Polislər İstanbulun mərkəzində Azərbaycan dövlət nömrə nişanlı avtomobili gördükdə ondan şübhələniblər. Bundan sonra dərhal avtomobilə baxış keçirilib. Axtarışlar zamanı avtomobildən 33 kilo 576 qram ağırlığında 39 ədəd xalis qızıl külçə götürülüb.

Məlum olub ki, külçələr Azərbaycandan İstanbula qaçaqmalçılıq yolu ilə gətirilib. Əməliyyat zamanı adları açıqlanmayan 30 və 32 yaşlarında 2 nəfər saxlanılıb. Onlar istintaqa ilkin ifadələrində bildiriblər ki, Türkiyədə qızıl baha olduğu üçün satışı burada həyata keçirmək istəyiblər.

"Azərbaycanda zərgərliklə məşğul oluruq. Türkiyədə qızıl çox bahadır. Buna görə də əlimizdə olan qızılları əridib satmaq üçün İstanbula gəldik", - deyə saxlanılan şəxslərdən biri istintaqa ifadəsində qeyd edib.



## Büdcəyə dəyişikliklər fevralın 23-də müzakirə olunacaq

**Milli Məclisin (MM) fevralın 23-də keçiriləcək iclasının gündəliyi məlum olub. Virtualaz.org Milli Məclisdən verilən məlumata əsasən xəbər verir ki, iclasın gündəliyinə 5 məsələ daxildir.**

Gündəliyə MM-in payız sessiyasında qəbul olunmuş "Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsi haqqında" və "Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2016-cı il büdcəsi haqqında" qanun layihələrinə dəyişikliklər, o cümlədən Milli Məclisin yanvarın 19-da keçirilən xüsusi iclasında qəbul olunmuş bəzi dəyişikliklərə Azərbaycan Prezidenti tərəfindən veto qoyulması ilə bağlı məsələlərin müzakirəsi salınıb.

## Ermənistanın AŞ PA-dakı deputatı səsvermə hüququndan məhrum edilə bilər

**Ermənistanın AŞ PA-dakı nümayəndə heyətinin üzvü Naira Zöhrabyan AŞ PA-da səsvermə hüququndan məhrum edilə bilər. APA-nın "news.am" saytına istinadən verdiyi xəbərə görə, bu barədə "Aykakan Jamanak" nəşri məlumat yayıb.**

Nəşr yazır ki, buna səbəb N. Zöhrabyanın Türkiyə nümayəndə heyətinin üzvü, milliyyətcə erməni Marqar Yesayana təzyiq göstərməsidir. Qeyd edilir ki, Türkiyə nümayəndə heyəti N. Zöhrabyanın davranışı ilə əlaqədar AŞ PA-ya etiraz məktubu ünvanlayıb. Məktubda N. Zöhrabyanın M. Yesayanı təhqir etdiyi vurğulanıb.

"Mənbələrimizin dediyinə görə, Pedro Aqramunt məsələni İntizam komissiyasına göndərəcək və AŞ PA-nın apreldə keçiriləcək yaz sessiyasında Zöhrabyana qarşı sanksiyalar tətbiq edilə bilər. Hazırda onun səs hüququndan məhrum edilməsi müzakirə olunur", - deyə məqalədə bildirilir.

Artıq N. Zöhrabyan da məsələyə münasibət bildirib: "AŞ PA prezidenti Pedro Aqramuntun məqsədi məni qətiyyən maraqlandırmır. Səsvermə hüququmdan məhrum ediləcəyimdən də qətiyyən narahat deyiləm. Mən Marqar Yesayana münasibətdə düzgün davranış sərgiləmişəm".

Qeyd edək ki, AŞ PA-nın qış sessiyasının gedişində M. Yesayan Robert Uolterin müəllifi olduğu "Dağlıq Qarabağ və ətraf ərazilərdə zorakılığın artması" adlı qətnamənin lehinə səs verib. Bundan sonra N. Zöhrabyan ona yaxınlaşıb və mövqeyini bildirib.

## QHT Şurası bu gün "Atəşkəs" filmini təqdim edəcək

**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə Beynəlxalq Avrasiya Mətbuat Fondu və Macar Turan Fondunun həyata keçirdiyi layihə çərçivəsində hazırlanan "Atəşkəs" filminin təqdimat mərasimi keçiriləcək.**

Qarabağ həqiqətlərindən bəhs edən filmdə Azərbaycan tarixinə dair çoxsaylı faktlar, eləcə də torpaqlarımızın işğalı nəticəsində doğma yurdlarından köçkün düşən insanların acı həyatı əksini tapıb.

Mərasim 17 fevral 2016-cı il, saat 11:00-da Nizami Kino Mərkəzində baş tutacaq.

Ünvan: Bülbül prospekti 20.

## 4-cü polis bölməsinə yeni rəis təyin olundu

**Daxili işlər naziri, general-polkovnik Ramil Usubov Bakı şəhəri Binəqədi rayonunda yerləşən 4-cü polis bölməsinə yeni rəis təyin edib.**

Nazirin əmrinə əsasən, Nizami Rayon Polis İdarəsinin 24-cü Polis Bölməsinin rəisi Etibar Balakişiyev tutduğu vəzifədən azad edilərək Binəqədi Rayon Polis İdarəsinin 4-cü Polis Bölməsinin rəisi vəzifəsinə təyinat alıb.

Qeyd edək ki, Binəqədi Rayon Polis İdarəsinin 4-cü Polis Bölməsinin rəisi Natiq Qasımov bir müddət əvvəl tutduğu vəzifədən azad edilərək Nizami Rayon Polis İdarəsinin narkotiklərlə mübarizə bölməsinin rəisi təyin edilib.

## Ermənistan əhalisi 600 min nəfər azalıb

**Müstəqillik illəri ərzində Ermənistan əhalisi 600 nəfər azalıb. Virtualaz.org Ermənistan KİV-inə istinadən xəbər verir ki, bu haqda ölkənin rəsmi statistika xidməti məlumat yayıb.**

Belə ki, 2016-cı il yanvarın 1-nə Ermənistan əhalisinin sayı 2 milyon 998 min 600 nəfər təşkil edib.

Statistika xidməti bildirib ki, ölkə "yaşlılar ərazisinə" çevrilib. Əyalətlərdə əhalinin sayında artım, demək olar ki, müşahidə edilməyib.

Qeyd edək ki, 1977-ci ildə ölkə əhalisinin sayı 2 milyon 900 min, bir sonra isə 3 milyondan çox olub. 1992-ci ildə isə Ermənistan əhalisinin sayı 3,6 milyon nəfər təşkil edib.


### Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



## Yazarımız Tofiq Yaqubluya Azadlıq!

# Günün içindən



# Döyülərək öldürülən jurnalistin ilkin izahatı itib

**Fevralın 16-da Bakı Ağır Cinayətlər Məhkəməsində jurnalist Rasim Əliyevin qətlə yetirilməsi ilə bağlı həbs edilən Elşən İsmayılov, Camal Məmmədov, Arif Əliyev, Kənan Mədətov və Samir Mustafayevin cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**

## Rasim Əliyevdən Klinik Tibbi Mərkəzdə izahat alınsa da, həmin izahat cinayət işi materiallarında niyə yoxdur?



Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, prosesə hakim Eldar İsmayılov sədrlik edib. Prosesdə tibbi ekspertizanı keçirən ekspert Alim Hüseynov və tibbi ekspertizanın rəyini yazan Ziyafəddin Məmmədov ifadə veriblər. A.Hüseynov ifadəsində meyitə ilkin baxış keçirdiyini, mərhumun bədən səthində xəsarət izinin aşkar edilmədiyini göstərib. Z.Məmmədov isə ona təqdim olunan sənədlər əsasında tibbi rəy yazdığını deyib. Zərərçəkən tərəfin vəkili Fariz Namazlı prosesdə çıxış edərək deyib ki, Rasim Əliyevdən Klinik Tibbi Mərkəzdə izahat alınsa da, həmin izahat cinayət işi materiallarında yoxdur. Vəkil həmin izahatın polis bölməsindən alınmasını və müstəntiqin prosesə çağırılaraq dindirilməsini istəyib. Məhkəmə vəsatəti qismən təmin edib. Bildirilib ki, bununla bağlı polis bölməsinə sorğu göndəriləcək. Vəkilin R.Əliyevin döyüldüyünü əks etdirən videogörüntünün cinayət işinə əlavə olunması ilə bağlı qaldırdığı vəsatət təmin edilib.

Məhkəmə prosesi fevralın 23-də davam etdiriləcək.

Xatırladaq ki, ann.tv-nin əməkdaşı Rasim Əliyev facebookda futbolçu Cavid Hüseynovu tənqid edən statusuna görə 8 avqust, 2015-ci ildə Bayıl qəsəbəsi ərazisində bir qrup şəxs tərəfindən döyülüb. Jurnalist çoxsaylı bədən xəsarətləri ilə Kliniki Tibbi Mərkəzə yerləşdirilib və ertəsi gün orada vəfat edib. Bununla bağlı Bakı Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma, zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb. Elşən İsmayılov, Camal Məmmədov, Arif Əliyev, Kənan Mədətov və Samir Mustafayev barəsində həbs-qətimkan tədbiri seçilib.

O cümlədən "Qəbələ" klubunun sabiq kapitanı Cavid Hüseynov da R.Əliyevin döyülərək qətlə yetirilməsi ilə əlaqədar açılan cinayət işi üzrə şübhəli şəxs qismində saxlanılıb. Cavid Hüseynovun barəsindəki cinayət işi digər təqsirləndirilən şəxslərin işindən ayrılıb.

# Yol polisi qanunları poza bilərmi?

## DYP əməkdaşlarının bilmədiyimiz hüquq və üstünlükləri hansılardır...



**Dünya mediasında tez-tez belə xəbərlərə rast gəlirik: "Sürücü yol polisinə irad tutdu", "Qanunu pozan polisi saxladı...". Təəccüblənirik, amma bu, ilk deyil. Elə qonşu Türkiyədə bununla bağlı çəkilmiş çoxlu sayda videoroliklər var. Polis maşınları qovur, təhlükəli manevrlər edir... sürücülərdən biri onu saxladıb, bu hərəkətinin yanlış olduğunu, yol hərəkətinə, digər sürücülərin həyatına təhlükə törətdiyini deyir.**

Bizim yollarımızda da polislərin tez-tez bu cür davranışlarına rast gəlmək mümkündür. Bəzən səsgücləndirici ilə "yolu boşaldın" əmri, ardınca maşınların sağa sıxışdırılması hesabına özünə yol açmalar və avtomatik qəza vəziyyətinin yaradılması. Bu, qanunla yol polisinə verilən hüquqdurmu? Onun belə bir haqqı varmı?

DYP-dən aldığımız məlumata görə, DYP əməkdaşları xidməti zamanı zərurət yarandığı halda qanunun tələblərindən kənara çıxa bilərlər. Onlar hər hansı bir ərazidə qaydanı pozan şəxsi inzibati məsuliyyətə cəlb etmək məcburiyyətində qaldıqda o, qanunun tələblərindən kənara çıxıb xidməti avtomobili digər hərəkət iştirakçılarının gediş-gəlişinə maneə yaratmamaq şərti ilə qadağan olunmuş yerdə saxlaya bilər.

Qanunda birmənalı şəkildə nəzərdə tutulub ki, xüsusi səs, qırmızı və ya göy sayrışan işıq siqnalı verən keçid üstünlüyü hüququna malik olan nəqliyyat vasitələrinə yol verilməlidir.

İnzibati Xətalar Məcəlləsinə görə, xüsusi üstünlüyə malik avtomobillərə yol verməyənlər iyirmi manatdan qırx manatadək cərimə olunur.

Bundan başqa, yol polisi əməkdaşlarının avtomobil idarə edərkən telefonla danışması qanunidir. Belə ki, patrul avtomobillərində radiostansiyalar quraşdırılıb. Radiostansiya vasitəsilə polis əməkdaşları məlumatlar alır və ötürür. Bəzən isə hər hansı məsələ ilə bağlı telefonla da danışırlar. Radiostansiya ilə danışmağa icazə verildiyi üçün telefonla danışmaq da yasaq deyil.

Bir sözlə, xüsusi üstünlük hüququna malik nəqliyyat vasitələri yol hərəkət qaydalarını poza bilərlər. Qanun bir sıra nəqliyyat vasitələrinə xüsusi üstünlük statusu verib. Bunlardan biri də DYP-nin xidmətdəki əməkdaşlarıdır.

Mövzu ilə bağlı gəzişmə zamanı bununla bağlı qarşımıza maraqlı faktlar da çıxdı. Məlum oldu ki, DYP əməkdaşlarının hüquqları sırasına aşağıdakılar daxildir:

*yol hərəkətinə nəzarət etmək və yol hərəkəti təhlükəsizliyi qaydalarının pozulması hallarının qarşısını almaq;*

*yol hərəkətini tənzimləmək;*

*yol-nəqliyyat hadisələrinin baş verdiyi yerlərdə təxirəsalınmaz tədbirləri həyata keçirmək;*

*ictimai təhlükəsizliyin təmin edilməsində və cinayətkarlığa qarşı mübarizə tədbirlərində iştirak etmək;*

*xüsusi təyinatlı nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətini təmin etmək, bu cür nəqliyyat vasitələrini, habelə avtomobil karvanlarını müəyyən edilmiş qaydada müşayiət etmək;*

*yol hərəkəti təhlükəsizliyi qaydalarını pozan şəxsləri qanunvericiliyə uyğun olaraq inzibati məsuliyyətə cəlb etmək;*

*yol şəraiti hərəkət üçün ciddi təhlükə yaratdıqda, fövqəladə və digər hallarda yol hərəkətini müvafiq qaydada müvəqqəti məhdudlaşdırmaq və ya qadağan etmək;*

*qanunvericiliklə nəzərdə tutulan hallarda nəqliyyat vasitələrinin istismarını qadağan etmək;*

*küçə və yollarda sahibsiz qalan və hərəkətə maneçilik törədən nəqliyyat vasitələrini duracağa göndərmək;*

Bundan başqa, əgər yol polisi əməkdaşı qanun poztunsuna yol verən hansısa maşını təqib edirsə, bu halda yol polisi müfəttişi xüsusi səs və sayrışan işıq siqnallarını işlək vəziyyətdə saxlamalıdır. Onun vəzifələri sırasında hərəkətin digər iştirakçılarına qarşı xüsusi diqqətli olması, manevr etmədən əvvəl onun təhlükəsizliyinə tam əmin olması, yol ayrıclarında və dəmiryol keçidlərində ötmə qaydalarını pozmamalı olması daxildir. Eləcə də yol polisi təqib olunana ehtiyatla yanaşmalıdır. Təqib təhlükəli olduqda və ya onun bir nəticə verməməsi aydın olduqda təqibi dayandırmalıdır *(növbətçi müfəttişin razılığı əsasında, onunla rabitə olmadıqda - bu qərarı müfəttiş özü qəbul edir).*

❑ **Sevinc TELMANQIZI**

# Ali Məhkəmə hüquq müdafiəçisini həbsdə saxladı

**Ali Məhkəmə hüquq müdafiəçisi Rəsul Cəfərovun kasasiya şikayətini təmin etməyib.**



Rəsul Cəfərov

Hakim Fərhad Kərimovun sədrliyi ilə keçirilən prosesdə apelyasiya məhkəməsinin qərarı qüvvədə saxlanılıb.

Məhkəmədə Rəsul Cəfərov da iştirak edib.

İyulun 31-də Bakı Apelyasiya Məhkəməsi həbsdə olan hüquq müdafiəçisi Rəsul Cəfərovla bağlı hökmü dəyişdirib. Rəsul Cəfərov vergi borcunu ödədiyi üçün işindəki vergidən yayınma ilə bağlı ittihama xitam verilib. 6 il 6 aylıq cəzası 6 il 3 aya endirilib.

Rəsul Cəfərov 2 avqust 2014-cü ildə həbs edilib. Ona qarşı Cinayət Məcəlləsinin 192 (qanunsuz sahibkarlıq), 213 (vergi ödənişindən yayınma) və 308-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə ittiham irəli sürülüb. Sonradan onu həm də mənimsəmə və vəzifə saxtakarlığında ittiham ediblər.

Rəsul Cəfərov ittihamları qəbul etmir və həbsini siyasi sifariş sayır.

"Amnesty İnternational" beynəlxalq hüquq müdafiə təşkilatı onu "vicdan məhbusu" elan edib.

# Gülər Əhmədovanın məhkumluğu götürülmədi

**Bakı Apelyasiya Məhkəməsində sabiq deputat Gülər Əhmədovanın şikayəti üzrə məhkəmə prosesi keçirilib.**



Məhkəmə onun şikayətini təmin etməyib.

G. Əhmədova prosesdə iştirak etməyib.

Qeyd edək ki, fəaliyyəti dayandırılmış Azərbaycan Beynəlxalq Universitetinin sabiq rektoru Elşad Abdullayevin yaydığı qalmaqallı videodan sonra Gülər Əhmədova deputat mandatından imtina edib. G. Əhmədova barəsində həbs-qətimkan tədbiri seçilib.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə G. Əhmədova 3 il müddətinə azadlıqdan məhrum edilib.

Bakı Apelyasiya Məhkəməsi isə Gülər Əhmədovanın barəsində Cinayət Məcəlləsinin 70-ci maddəsini tətbiq edib. O, 2014-cü il mayın 5-də 3 il müddətinə şərti olaraq azadlıqdan məhrum edilib və məhkəmə zalından azadlığa buraxılıb.

Daha sonra G. Əhmədova üzərindən məhkumluğun götürülməsi barədə ərizə ilə Yasamal Rayon Məhkəməsinə müraciət edib. Lakin məhkəmə onun müraciətini rədd edib. Apelyasiya şikayəti həmin qərardan verilib.

# Məhkumun ölümü ilə bağlı rəsmi izahat-"gəzintidə yıxılıb ölüb..."

**Penitensiar Xidmətin 6 saylı cəzaçəkmə müəssisəsində iki məhkumun öldürülməsi ilə bağlı məlumat yayılıb. Ədliyyə Nazirliyi Penitensiar Xidmətdən verilən məlumata görə, bir neçə məhkumun döyülməsi, iki nəfərin öldürülməsi barədə həqiqətəuyğun olmayan qərəzli məlumatlar yayılıb.**



"Bununla əlaqədar bildirilir ki, 6 saylı cəzaçəkmə müəssisəsində cəza çəkən Cinayət Məcəlləsinin 29, 120.1-ci (qəsdən adam öldürməyə cəhd etmə) maddələrinə əsasən 7 il müddətinə azadlıqdan məhrum edilmiş məhkum Nurani İbrahimov qanunla nəzərdə tutulmuş gəzinti vaxtı qəflətən özünü pis hiss edərək yerə yıxılıb və ona göstərilən təxirəsalınmaz tibbi yardıma baxmayaraq, vəfat edib.

Faktla bağlı dərhal prokurorluğa məlumat verilib və araşdırma başlanılıb".

Xidmətdən verilən açıqlamada qeyd edilib ki, mərhumun meyitinin məhkəmə-tibb eksperti tərəfindən aparılmış ilkin xarici müayinəsi zamanı onun ölümünə səbəb olan xəsarətlər aşkar edilməyib, daxili müayinəsinin aparılması və ölümünün səbəbinin müəyyən edilməsi üçün məhkəmə-tibb ekspertizası təyin edilib. "Həmin müəssisədə cəza çəkən məhkum Sahib Abbasovun döyülərək öldürülməsi, digər məhkumlar Elmir Əsədovun və Tariyel Şahverdiyevin xəsarət alaraq xəstəxanaya köçürülmələri barədə yayılmış qərəzli məlumatlar uydurma olmaqla həqiqətə uyğun deyil və ictimaiyyətdə yanlış fikrin formalaşmasına yönəlib".

Həmin məhkumlarla valideynləri və yaxınları narahatlıq keçirməsinlər deyə telefon əlaqəsi saxlayıblar.

YENİ MÜSAVAT
N 37 (6358) 17 fevral 2016

# Kəmaləddin Heydərov tikinti bumunun başlanacağının anonsunu verdi



## Nazirin tikinti sektorunda fəaliyyət göstərən sahibkarlarla görüşündə verdiyi açıqlamalar yeni mərhələnin startı hesab edilir

**Fevralın 16-da fövqəladə hallar naziri Kəmaləddin Heydərov tikinti sahəsində fəaliyyət göstərən sahibkarlarla görüşüb. APA-nın məlumatına görə, Azərbaycan prezidenti İlham Əliyevin yanvarın 26-da keçirdiyi iclasda verilən tapşırıqların icra ediləcəyini bildirən K.Heydərov qeyd edib ki, görüşdə məqsəd respublikada tikinti işlərinin sürətləndirilməsi və mövcud problemlərin aradan qaldırılmasıdır. Azərbaycanda son illər aparılan tikinti-quruculuq işlərindən söz açan nazir tikinti işləri ilə bağlı layihə-sənədləşmə işlərinin sürətləndirilməsi üçün yaxın vaxtlarda Fövqəladə Hallar Nazirliyində sahibkarların elektron imza vasitəsilə daxil olacağı onlayn elektron sistemin istifadəyə veriləcəyini, bu sistemin tikinti sahəsində "vahid pəncərə" rolunu oynayacağını nəzərə çatdırıb.**

İctimai nəzarətin əhəmiyyətini vurğulayan fövqəladə hallar naziri gələcəkdə tikinti şirkətlərinin nümayəndələrinin də iştirakı ilə FHN yanında İctimai Şura yaradılacağını, İctimai Şuranın sahibkarların problemlərinin həllində əhəmiyyətli rol oynayacağını vurğulayıb. K.Heydərov onu da qeyd edib ki, əvvəllər yerli icra strukturları tərəfindən yol verilən neqativ halların qarşısı bundan sonra alınacaq, heç bir süni maneə olmayacaq.

Görüşdə sahibkarların suallarını cavablandıran K.Heydərov elektrik enerjisi, su, kanalizasiya və digər məsələlərlə bağlı texniki şərtlərin verilməsi sahəsində problemlərin mərhələ-mərhələ aradan qaldırılacağını, texniki şərtlərin verilməsinin asanlaşdırılacağını söyləyib.

O, Fövqəladə Hallar Nazirliyinin sahibkarlara hər zaman dəstək verəcəyini vurğulayıb.

**Fövqəladə hallar naziri həmçinin bildirib ki, Bakının doqquz mikrorayonundakı 5, 7 və 9 mərtəbəli köhnə binaların sökülməsi, yerində yeni binaların tikilməsi üçün konsepsiya hazırlanıb. Konsepsiyaya əsasən bu binaların sakinlərinin yeni binalara köçürülməsi, həmin binaların yerində yenilərinin tikilməsi nəzərdə tutulur:** "Yeni tikilən binalardakı əlavə sahələr hesabına tikinti şirkətləri xərclərini təmin edə, gəlir də götürə biləcəklər. Fövqəladə Hallar Nazirliyi də bu sahədə tikinti şirkətlərinə dəstək verəcək".

**Deputat Fəzail Ağamalı "Yeni Müsavat"a bildirib ki, prezidentin başlatdığı iqtisadi islahatlarda tikinti sektorunun inkişafı ön yerləri tutur. Kəmaləddin Heydərovun keçirdiyi görüş, görüşdə səsləndirdiyi fikirlər də bu islahatlara başlanmasının bir göstəricisidir:** "Cənab prezident bəyan edib ki, tikinti sektoru inkişaf etdirilməlidir, Bakıda və regionlarda yeni tikinti işləri başlanmalıdır. Bu, həm yeni müasir binaların inşası, həm də yeni iş yerlərinin qurulmasına xidmət eləyən tezisdir. Bununla bağlı Kəmaləddin Heydərovun keçirdiyi toplantı prezidentin göstərişinin həyata keçirilməsinə start verilməsidir. Bundan az öncə Kəmaləddin Heydərovun Salyanda mənim də iştirakımla yerli sahibkarlarla, əhali ilə keçirdiyi görüşdə də ölkə prezidentinin yanvar ayında keçirdiyi müşavirələrdə verdiyi tapşırıqlar, imzaladığı sərəncam və fərmanlarda qarşıya qoyulan tələblər iştirakçıların diqqətinə çatdırıldı. Fevralın 16-da Bakıda tikinti şirkətlərinin rəhbərləri ilə görüşdə də məhz ölkə prezidentinin islahatlarının mahiyyətinə detalları ilə aydınlıq gətirilib və bu islahatların tikinti sektorunu da öz əhatəsinə alacağı bəyan edilib. Unutmaq olmaz ki, Kəmaləddin Heydərov sözünün sahibi olan nazirlərdən biridir. Onun söylədiyi fikirlərin arxasında konkret əməllər dayanır. Ona görə əminəm ki, artıq Azərbaycanın paytaxtında və bölgələrində tikinti ilə bağlı hər hansı problemlər yaşanmayacaq. Tikinti şirkətləri buyurub əl-qollarını çırmalasınlar və işə başlasınlar. Bununla da həm ölkəmiz abadlaşsın, həm də yeni iş yerləri açılsın. Əminəm ki, bütün bunlar olacaq".

**Keçmiş maliyyə naziri, iqtisadçı professor Fikrət Yusifov isə "Yeni Müsavat"a açıqlamasında tikinti şirkətlərinə bütün imkanların yaradılacağı barədə fövqəladə hallar nazirinin vədini pozitiv addım adlandırdı. F.Yusifovun sözlərinə görə, tikinti şirkətlərinə imkanlar yaradılması ölkə prezidentinin son aylarda sahibkarlığın inkişafı üçün atdığı addımların tərkib hissəsi sayılmalıdır:** "Tikinti şirkətlərinə şərait yaradılması, bürokratik maneələrin, süni əngəllərin aradan qaldırılması nəticə etibarilə tikinti sektorunun yenidən ayağa qalxmasına təkan ola bilər. Tikintinin canlanması iqtisadiyyatın canlanması, yeni iş yerlərinin yaranması deməkdir. Tikintinin canlanması ölkədə tikinti materiallarının istehsalı, ölkəyə idxalı və satışı ilə məşğul olan şirkətlərin də dirçəlməsi, bu sektorda da yeni iş yerlərinin yaranması demək olacaq. Süni maneələr olmadan, eyni zamanda normal qiymətlərlə alınan materiallarla inşa edilmiş binalarda mənzillərin maya dəyərinin aşağı olması evlərin satışına da müsbət təsirini göstərə bilər. Eyni zamanda mənzillərin çoxalması təklifinin çoxalması demək olacaq. Bu amil də qiymətlərin aşağı düşməsinə təsir edəcək".

❑ Etibar SEYİDAĞA

# Elmira Axundova niyə bu qədər hədəfdədir?

## Media üzrə ekspert "medianın məsələni çap etməsi üçün kifayət qədər əsası var" deyir

**Deputat Elmira Axundovanın oğlunun adı aylardır ki, mətbuatda bir qrup vətəndaşa qarşı dələduzluq olayında hallanır. Deputatın mal-mülkü haqda sənədlərin surətləri, əmlaklarının, maşınlarının fotoşəkilləri KİV-lərdən düşmür. Deputatın, onun oğlu Həbib Axundovun barəsində "Yeni Müsavat" qəzetində də yazılar dərc olunub. Redaksiyamıza müraciət edən vətəndaşlar H.Axundovun onların milyonlarla manat pulunu alaraq qaytarmadığını, hüquq-mühafizə orqanlarının isə məsələni Elmira Axundovaya görə araşdırmaqda elə də həvəsli olmadıqlarını deyiblər.**

Bu məsələlərlə bağlı hər dəfə deputatın, onun oğlunun mövqeyini öyrənməyə cəhd etsək də, qarşı tərəf hər hansı bir açıqlama verməkistəməyib. Bununla belə, E.Axundovanı medianın hədəfə alması ilə ən müxtəlif fikirlər səsləndirilir. Hətta mətbuatın deputata qarşı qərəzli mövqe sərgilədiyini deyənlər də tapılır.

**Media məsələləri üzrə ekspert Ələsgər Məmmədli** deyir ki, söhbət ictimai xadimdən, onun ailə üzvlərindən gedirsə, onların adları qeyri-qanuni işlərdə hallanırsa, belə məlumatlar cəmiyyət üçün ciddi şəkildə ictimai əhəmiyyət kəsb edir. Bu baxımdan da medianın vəzifəsi və borcudur ki, bununla bağlı məlumatları ictimaiyyətin diqqətinə təqdim etsin: "Bununla bağlı Azərbaycanın qoşulduğu Avropa Şurasının məhkəmə praktikası var. Həmin praktikada çox açıq şəkildə deyilir ki, informasiyalar ictimai əhəmiyyət daşıyırsa, o zaman medianın xəbərləmə vəzifəsi var və media bu vəzifəsini icra etməlidir. Deməli, redaksiyanıza, əməkdaşlarına gələn, qanuni, qeyri-qanuni yollarla göndərilən informasiya ciddi şəkildə ictimai əhəmiyyət kəsb edirsə, yayılması mümkündür".

**Ə.Məmmədli deyir ki, məsələnin digər tərəfi də daxil olan informasiyaların yoxlanılması ilə bağlıdır:** "İnformasiyanın obyektiv olub-olmaması ciddi araşdırılmalıdır. Önəmli məqamlardan biri də qarşı tərəfin iddialara cavab verib-verməməsidir. Bu məqam da oxucuya çatdırılmalıdır. Əgər mətbuat nümayəndəsi məsələni bu formada testdən keçirib yayıbsa, burada hər hansı bir problem yoxdur".



**Ə.Məmmədli deyir ki, redaksiyalara çatan məlumatlar böhtan xarakterli də ola bilər:** "Buna görə də media iddiaları öz imkanları daxilində araşdırmalıdır və bundan sonra dərc etməlidir. Ola bilər ki, ötürülən məlumat gerçək kimi görünər, amma qəsd olsun, kimisə qaralamaq niyyəti daşısın. Bu zaman media daha diqqətli olmalıdır. Amma ortada məhkəmə iddiası, hüquq-mühafizə orqanlarına müraciət, konkret şikayətçilər varsa, medianın məsələni çap etməsi üçün kifayət qədər əsası var. Çünki qarşı tərəf ictimai əhəmiyyətlidir və onun ictimi əhəmiyyətli olması mediaya məsuliyyət yaradır ki, bu tip məsələnin daha ciddi araşdırılması üçün cəmiyyətə çatdırsın, məsələni cəmiyyətin önünə sərməklə baş verən proseslə bağlı qeyri-qanuni müdaxilələrin, dövlət qurumlarının hərəkətsizliyini önləsin. Əgər ictimai nəzarət olmasa, o zaman vəzifəli şəxslərin yaxınlarının lehinə qərar verilə bilər. Burada ictimai nəzarət institutu kimi media çox cidd rol alaraq məhz ədalətli həll yolunun seçilməsi, bir tərəfin istəyi çərçivəsində qarşı tərəfin hüquqlarının pozulması ilə müşayət olunan qərarın verilməsinin qarşısı ala bilər".

❑ E.MƏMMƏDƏLİYEV

# "Əli Kərimlinin gizli görüşlərinin videosu var"

## Razi Nurullayev: "Bu görüntülər ona görə yayımlanmır ki..."

**Yeni Azərbaycan Partiyası icra katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzovun AXCP sədri Əli Kərimlinin hakimiyyətlə danışıqlar aparması haqda şok açıqlaması siyasi müstəvidə aktual mövzu olaraq qalır.**



S.Novruzov deyib ki, 2000-ci ildə Əli Kərimli dəfələrlə Azərbaycanın yüksək vəzifəli rəsmi şəxsləri ilə xaricdə görüşmək arzusunda olduğunu bəyan edib: "Görüş yeri kimi Strasburq və ya London seçilmişdi. Mən şəxsən bu danışıqların iştirakçısıyam və danışıqların aparıldığı yer Tofiq Bəhramov adına stadionun yanındakı "Xankəndi" restoranı idi. Əli Kərimlinin bu əməllərinin şahidləri də var. Bu gün o insanların bir hissəsi Milli Məclisdə təmsil olunur. Cəmil Həsənli, o dövrdə AXCP-nin funksionerləri və hazırda deputat olanlardan da bilavasitə bu danışıqlarda iştirak edənlər var. Əli Kərimli şəxsi mənafeyi naminə ömrü boyu öz dostlarını, yoldaşlarını satmaqla məşğul olub".

Vaxtilə Əli Kərimlinin müavini olan, hazırda özünə yeni AXCP təsis edən Razi Nurullayev azvision.az-a açıqlamasında S.Novruzovun dediklərini təsdiqləyib. Onun sözlərinə görə, Əli Kərimlinin hakimiyyət təmsilçiləri ilə görüşünü əks etdirən videogörüntülər mövcuddur. "Əli Kərimli hakimiyyətlə işbirliyinə getmək istəyirdi. İqtidarla işbirliyinə getməyin, hakimiyyətdən rüşvət almağın, müxalifət arasında dağınıqlıq yaratmağın, onu parçalamağın bünövrəsini Əli Kərimli qoyub və bunu öz istəyi ilə edib.

Əli Kərimlinin hakimiyyətlə apardığı gizli görüşmələrin videosu var. Çox yüksək səviyyələrdə Əli Kərimli ilə iqtidar nümayəndələri arasında gecə görüşləri keçirilib. Hakimiyyət Əli Kərimlinin keçirdiyi görüşlərin videogörüntülərini saxlayır. Bu görüntülər ona görə yayımlanmır ki, orada Əli Kərimli ilə yanaşı, hakimiyyət içərisində təmsil olunan bir çox insanın siması görünür. Hakimiyyət isə hələlik həmin insanları aşkara çıxarmaq istəmir. Əli Kərimlini qoruyan faktor budur".

YENİ MÜSAVAT

N 37 (6358) 17 fevral 2016

# Türkiyə səfiri "Yeni Müsavat"a önəmli açıqlamalar verdi

## "Hər zaman Azərbaycanın xidmətindəyik, şübhəniz olmasın"

**Türkiyənin Azərbaycandakı səfiri Alper Coşqun "Yeni Müsavat"a müsahibə verib. Dəyərli diplomatla səmimi söhbətimiz zamanı prezident Rəcəb Tayyib Ərdoğanın Azərbaycan ziyarəti, Bakı-Ankara münasibətlərinin perspektivləri, Türkiyə və Rusiya arasında yaşanan gərginliklər, Suriya ətrafında baş verənlər və digər məsələlərdən danışdıq.**

*- Cənab səfir, 18 fevralda Türkiyə prezidenti Azərbaycana gələcək və prezident İlham Əliyevlə Gəncədə görüşəcək və prezidentlər Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasında iştirak edəcəklər. İndiki həssas dönəmdə bu toplantının keçirilməsi hansı zərurətdən irəli gəldi? Bakı və Ankaranın regionla, baş verən proseslərlə əlaqədar hansısa ortaq projesi var?*

- Bu toplantının zamanının və yerinin müəyyənləşdirilməsinin üçüncü bir ölkə ilə və ya spesifik hər hansı bir mövzu ilə əlaqəsi yoxdur. Bu, Türkiyə və Azərbaycanın ortaq iradəsi ilə, hər il keçirilən bir toplantının 2016-cı ildə gerçəkləşdirilməsidir. Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası 5-ci dəfədir toplanır. Bu toplantıda dövlət başçıları ilə bərabər hörmətli nazirlər də bir araya gəlirlər. Bir il əvvəl qəbul edilən qərarları incələyirlər, bir il sonra yenidən toplanacaqları zamana qədər aparılacaq çalışmaların yol xəritəsini ortaya qoyurlar. Bu, bizim Azərbaycanla ən yüksək səviyyədə həyata keçirdiyimiz işbirliyi toplantısıdır. Bu toplantıda eyni zamanda hörmətli dövlət başçıları şübhəsiz ki, geopolitik gəlişmələri də dəyərləndirirlər. İki ölkə rəhbərinin görüşündə şübhə yox ki, qlobal iqtisadi gəlişmələri nəzərdən keçirəcəklər, Azərbaycan üzərindən həyata keçirilən enerji layihələrini, ən başda TANAP olmaq şərtilə, müzakirə edəcəklər, müvafiq təlimatlarını verəcəklər. Enerji nazirləri, SOCAR rəhbərliyi orda olacaq. Regional məsələlər dəyərləndiriləcək, iki ölkənin xarici işlər nazirləri də orda olacaq. Həm Azərbaycanın və Türkiyənin sabitliyi, rahatlığı və rifahı ilə bağlı durum dəyərləndirmələri yapılacaq, həm də birlikdə bu günə qədər etdikləri kimi, bundan sonra da bölgədə işbirliyini necə davam etdirə biləcəkləri, mövcud təhlükəsizlik problemləri ilə nə cür mücadilə aparacaqları barədə dəyərləndirmələr aparılacaq. Bu, çox geniş, əhatəli müzakirələrdir. Amma dediyim kimi, bu toplantının təyin olunması və keçirilməsi başqa məsələlərlə əlaqəli deyil. Dediyim kimi, biz Azərbaycanla hər mövzuda işbirliyi içərisindəyik.

*- Bu kimi təmaslar Azərbaycan və Türkiyəni hərbi müttəfiqliklə bağlı sazişlərin imzalanmasına apara bilərmi? Yoxsa NATO ölkəsi olması Ankaraya problem yaradır?*

- Əvvəlcə bunu deməliyəm ki, Dağlıq Qarabağ məsələsinin Azərbaycanın torpaq bütövlüyü və suverenliyinə əsasən, sülh yolu ilə çözülməsində Türkiyə ilk gündən olduğu kimi, Azərbaycanın tam yanındadır. İkincisi də Azərbaycan ikinci dəfə müstəqillik qazanandan sonrakı ilk günlərdən etibarən bizim Türkiyə olaraq Azərbaycanla hər sahədə olduğu kimi, müdafiə və hərbi əməkdaşlıqda da çox möhkəm işbirliyimiz oldu. 25 il əvvəli düşünsəniz, görərsiniz ki, hansı imkanlarımız var idisə, Azərbaycanla paylaşmağa hazır olduğumuzu bəyan etdik. Bu gün isə qarşımızda bambaşqa bir Azərbaycan var, maşallah. Bizim üçün artıq sadəcə Türkiyənin göstərə biləcəyi dəstək axtarışında olan Azərbaycan yox, bizim də güc aldığımız, bir çox sahədə işbirliyi həyata keçirərək bizim əlavə dəyər əldə etdiyimiz, enerjidaşıma layihələrində olduğu kimi, birlikdə inkişaf etdirdiyimiz fikirlərlə üçüncü ölkələrə, başqa bölgələrə təsir edə biləcək layihələri birlikdə həyata keçirdiyimiz bir ortağımız-Azərbaycan var. Bu ortaqlıq əlaqəsi artıq çox mükəmməl bir hala gəlib. Təbii ki, bizim təhsil, mədəniyyət, iqtisadiyyat, ticarət, xarici siyasət, diaspor işi və digər bir sıra sahələrdə həyata keçirdiyimiz işbirliyi kimi, hərbi, müdafiə sahəsində də çox ciddi işbirliyimiz var. Müttəfiqlik ifadəsinə gəldikdə, Türkiyə tərəfdən baxanda, biz bir ittifaqın parçasıyıq, NATO-nun üzvüyük. Azərbaycan hər hansı bir ittifaqın üzvü olmasa da, Türkiyə nümunəsində çox möhkəm əsgəri, müdafiə sənayesi sahələrində bizimlə işbirliyindədir, öz ordusunu NATO standartlarına yüksəltmək axtarışlarındadır. Torpaqlarının iyirmi faizi işğalda olduğu üçün təhlükəsizlik məsələləri ilə bağlı ehtiyacları olan bir ölkədir, ancaq son dönəmlər hərbi qüdrətini, müdafiə sənayesini inkişaf etdirməkdədir. Belə olan təqdirdə bizim Azərbaycana söylədiyimiz budur ki, Türkiyənin nə qədər imkanı varsa, Azərbaycanın bunlardan hansına ehtiyacı varsa, biz hər zaman Azərbaycanın xidmətindəyik, buna azca da olsa, şübhəniz olmasın.

**"Bu gün qarşımızda bambaşqa bir Azərbaycan var, maşallah"**

*- Cənab səfir, Rusiyanın Bakıdakı səfirliyi ilə qonşusunuz, ayaqla da gedib-gəlmək mümkündür. İndiyə qədər, xüsusilə də təyyarə olayından sonra rus həmkarınız Vladimir Doroxinlə hansısa təmasınız olubmu?*

- 24 noyabrda təyyarə hadisəsi yaşandıqdan sonra Türkiyə tərəfindən verilən açıqlamalarla hər biriniz tanışsınız. Biz həm bu hadisədən üzgünlüyümüzü ifadə etdik, həm də bu hadisənin yaşanmaması üçün əlimizdən gələn hər şeyi əvvəlcədən etdiyimizi xatırlatdıq. Biz ortaya çıxan bu nəticə üçün məsuliyyət daşımırıq. Amma təəssüf ki, rus tərəf Türkiyənin ilk gündən soyuqqanlı açıqlamalara müsbət qarşılıq vermədi, əksinə, kəskin reaksiyalar verdi və prosesi indiki nöqtələrə gətirib çıxardı. O dönəmdə xarici işlər nazirimizin AGİT zirvəsi çərçivəsində Belqradda keçirilən toplantıda Rusiya xarici işlər naziri Lavrovla görüşü də oldu. Biz orada da rus tərəfinə təyyarənin vurulması ilə bağlı araşdırmanın aparılması üçün komissiya yaradılmasını təklif etdik. Yəni biz ilk gündən hər şeyi soyuqqanlı, rasional, duyğusallıqdan uzaq bir şəkildə Rusiya ilə müzakirə etməyə hazır olduğumuzu dedik. Amma təəssüf ki, bunlara qarşılıq verilmədi. İndi Bakıda mənim və ya rus həmkarımın üzərinə bu mövzuda düşən özəl bir görəv yoxdur, şəxsən mən belə bir təlimat almadığımı deyə bilərəm. Eyni zamanda bizlər peşəkar diplomatlarıq, peşəkar münasibətlərimizi hər zamankı mədəniyyət çərçivəsində bundan sonra da davam etdirəcəyik.

*- Tədbirlərdə üz-üzə gəldiyiniz oldumu?*

- Təbii ki, oldu. Biz iki mədəni insanıq. Onun da özünə görə baxışları ola bilər, mənim də. Amma diplomatlar hətta anlaşa bilmədikləri hallarda belə, danışıq kanallarını açıq saxlamaqdır. Biz ikimiz də peşəkar olduğumuz üçün görüş zamanı da təbii ki, hər hansı gərginlik olmadı. Amma bizim bu görüşümüzdən hardasa 2 ay keçib. Mən 3 il yarımdır burada çalışıram, Rusiya səfiri də peşəkar diplomatdır. Bizim aramızda peşəkar münasibətlər olduğu nöqtədən davam edir.

*- Bakı həm Türkiyəyə, həm də Rusiya ilə yaxın münasibətlərdədir. Türkiyə ilə təbii ki, özəl münasibətlər var. Bu məsələnada Azərbaycanın vasitəçiliyi ilə Ankara və Moskvanın münasibətlərinin normallaşdırılması mümkün görünürmü, yoxsa buna cəhd etməyə dəyməz?*

- Təbii, Türkiyə üçün Azərbaycan hər mövzuda ən yaxın və ən güvəndiyimiz strateji müttəfiqimizdir, buna azca da şübhə yox. Dolayısı ilə Türkiyə hər mövzuda Azərbaycana tam güvən hissi içərisindədir. Amma son hadisə ilə əlaqədar olaraq bizim xüsusi vasitəçi istəyimiz, yaxud belə bir ehtiyacımız, tələbimiz yoxdur. Şübhəsiz, Azərbaycan bu coğrafiyada önəmli dövlətlərdən biridir, Türkiyə və Rusiya ilə tarixdən gələn özəl əlaqələri var. Amma bizim spesifik bir tələbimiz yoxdur.



**Alper Coşqun: "Bölgədəki qeyri-sabitlik, narahatlıq Moskvanın siyasətindən qaynaqlanır"**

*- Türk ordusunun Suriyadakı terrorçuları hədəfə alması, üstəlik, Türk əsgərinin Suriyaya daxil olduğu barədə xəbərlər var. Qarşı tərəfdə Əsəd rejimini müdafiə edən Rusiya ordusu var. Belə bir vəziyyət böyük bir savaşın başlaya biləcəyi barədə narahatlıq yaradır. Bu narahatlıq nə qədər əsaslıdır?*

- Türk əsgəri Suriyada deyil. Biz elə bir macəraya atılmağa həvəsli deyilik. Lakin təbii ki, təhlükəsizliyimiz üçün zəruri olan hər cür tədbiri görəcəyik. YPG-nin hədəfləri iki gündür vurulur. Türkiyənin bunu niyə etdiyini yaxşı dərk etmək, dayandığımız nöqtənin arxasında olanları addım-addım təhlil etmək lazımdır. Ümumiyyətlə, savaş ehtimalından danışaraq bölgədəki prosesləri analiz etmək yanlışdır. Bu bölgədə neinki savaşı, qeyri-sabitliyi, narahatlığı ən son istəyəcək ölkə Türkiyədir. Türkiyənin son 10-15 ildəki profilinə baxdığımızda görərik ki, iqtisadi potensial etibarilə böyük işlər görüb, turizm imkanlarını artırıb, dünyaya iqtisadi cəhətdən inteqrasiyasını çox önəmli nöqtələrə daşıyıb, iqtisadiyyatını ixracat üzərində qurmağı bacarıb, çox ciddi xarici yatırımları cəlb edə bilib. Üstəlik, Türkiyə bütün qonşuları ilə iqtisadi, sosial, mədəni əlaqələrini inkişaf etdirmək iradəsini ciddi şəkildə ortaya qoyub. Belə bir ölkənin ön son istəyəcəyi şey bölgədə qeyri-sabitlik, narahatlıq, qarşıdurma kimi şeylərdir. Türkiyənin xarici siyasətinin ana xəttini "Yurdda sülh, cahanda sülh" ... təşkil edir. Bu, bizim üçün vazkeçilməyəcək siyasətdir. Çünki Türkiyə barış, sabitlik və etimad ortamı şəraiti içərisində özünün iqtisadi potensialı, insan potensialı ilə ölkənin rifahını, ətrafındakı xalqlarla birlikdə bölgədəki rifahı inkişaf etdirəcəyinə inanır. Türkiyə bu sahədə iddialıdır və söhbət rəqabətdən gedirsə, bu potensialı ilə qlobal səviyyədə rəqabətə hazırdır. Başqa cür oyunlara, misal üçün "təsir dairələri" yaratmağa və ya geosiyasi tarazlıqları dəyişdirməyə həvəsi və ehtiyacı yoxdur.

*- Biz də buna şübhə etmirik. Amma qarşı tərəf təyyarə olayından sonra çox qıcıqlıdır... Həmçinin deyilənlərə görə, Türkiyə Suriyaya əsgər göndərsə, savaş çıxa bilər...*

- Ən çox "savaş ola bilər" mesajları Moskvadan gəlir. Nədən? Çünki Moskva öz hərəkətlərini arxa planda tutmaq üçün belə bir təəssürat yaratmağa və qeyri-sabitliyin dərinləşməsinin məsuliyyətini başqalarının, xüsusilə də bizim üstümüzə atmağa çalışır. Sizin sualınızda da bu mənanı, bəhs etdiyim təəssürat yaratmaq təşəbbüsünün öz bəhrəsini verdiyini sezdim ki, "türk əsgəri gələrsə, savaş ola bilər" dediniz. Üç addım geri gedək. Rusiya "terrorçuları bombalayıram" deyərək mülayim müxalifəti yox etməyə başladı. Hətta ən sonunda uşaqların və mülki şəxslərin də ölümünə səbəb oldu. Bunu söyləyən və şikayət edən sadəcə Türkiyə deyil. Yəni Suriyadakı bütün problemlərin əsasını təşkil edən Əsəd rejiminin maraqlarına görə hərəkət edən Rusiyadır. Bölgədəki qeyri-sabitlik, narahatlıq əsasən Moskvanın siyasətindən qaynaqlanır. Daha da geri gedək, coğrafiyamızda son dönəmlərdə yaşananlara baxaq. Krımın işğal edildiyini unutmayaq, Ukraynadakı vəziyyətə baxaq. Daha əvvələ gedək, Moldovaya, Gürcüstana baxaq, Dağlıq Qarabağ məsələsini xatırlayaq. Coğrafiyamızdakı hadisələrə bütöv halda baxdığımızda "aman, dünyada bir savaş ola bilər" deyən və bu mesajı yaymaqda maraqlı olan Moskvanın əslində bizim bölgəmizdəki bütün narahatlığın arxasında yer aldığını görərsiniz.

*- Xatırlayırsınızsa, Amerika lideri Obama Antalyadakı G-20 zirvəsində Əsəd rejiminə qarşı mübarizədə kürdləri də silahlandıracağını açıq mətnlə bəyan etmişdi. Bu gün Suriyadakı kürd terrorçular Türkiyəni də təhdid edir. Bu, o demək deyilmi ki, əslində Amerika və Rusiya bu məsələdə eyni mövqeni paylaşır?*

- "Kürdlər" dediniz. Türkiyənin kürdlərlə bir problemi yoxdur. Ancaq Türkiyənin mövqeyi yanlış olaraq dünyaya fərqli formada çatdırılır. Türkiyənin kürdlərlə dərdi yoxdur. Türkiyənin öz daxilində apardığı mücadilə də PKK terroru ilə mücadilədir. Suriyada isə PKK ilə iç-içə olması şübhə doğurmayan və məsələni araşdıran hər kəsin bildiyi orqanik bağlılığı olan bir təşkilat, PYD-nin silahlı qanadı var - YPG. Bu təşkilat Suriyadakı kürdləri təmsil etmir. Amma terror təşkilatı olaraq əlində imkanları olan, Əsəd rejimi ilə birlikdə hərəkət edən, sağlam müxalifətə qarşı duran, amma eyni zamanda İŞİD/DEAŞ-lə mübarizə aparan bir gücdür. Bu terror təşkilatı DAEŞ-lə mübarizə apardıqda ola bilsin Qərb tərəfindən məqbul sayılır, Əsəd rejimi ilə birgə hərəkət edəndə isə Rusiya üçün məqbul hala gəlir. Amma bu, bir şeyi dəyişdirməz: o da bunun bir terror təşkilatı olması reallığını. Bir terror təşkilatı bizim sevmədiyimiz başqa bir təşkilatla - burada DAEŞ nümunəsini xatırladım - mücadilə edir deyə, bizim gözləntimiz qərbli dostlarımız, müttəfiqimiz Amerikanın bu təşkilatı terror təşkilatlarından ayrı görməmələridir. Həssaslıq burdan qaynaqlanır.

*- Alper bəy, Qərbdə bütün bunlarla bağlı məlumatsızdılarmı, yoxsa məqsədli şəkildə terrorçulara dəstək verilir?*

*(Davamı növbəti sayımızda)*

❑ **Elşad PAŞASOY**

**FOTO: "YM"**

**"Bu, bizim Azərbaycanla ən yüksək səviyyədə həyata keçirdiyimiz işbirliyi toplantısıdır"**

YENİ MÜSAVAT
N 37 (6358) 17 fevral 2016

**Fevralın 15-də ABŞ Konqresində Azərbaycanın yüksək vəzifəli məmurlarına qarşı ötən ilin sonlarında konqresmen Kris Smitin təqdim etdiyi - sanksiyaları nəzərdə tutan qanun layihəsinin müzakirəsi gözlənilirdi. Artıq həmin tarix arxada qaldı. Lakin sanksiya məsələsi gündəmə gətirilmədi.**

# "Azərbaycan dəyişikliklərə doğru gedəcək"

## Mehman Əliyevdən ölkə və dünyada gedən proseslərlə bağlı şok açıqlamalar: "Müxalifətin aktivliyi bu gün gərək deyil"

*"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyevlə sanksiyaların müzakirəyə çıxarılmamasının səbəbləri, habelə ölkə və dünyada gedən prosesləri dəyərləndirdik.*

**- Mehman bəy, məlum qanun layihəsinin müzakirəsi nədən baş tutmadı?**

- Sanksiyalar məsələsi mütləq mənada qoyulmamışdı ki, nəyin bahasına olursa-olsun, lap hakimiyyət dəyişsə belə, tətbiq olunmalıdır. Sanksiyalar duruma bağlanmışdı. Durumun dəyişməsi üçün çağırışlar var idi. Düşünürəm ki, Azərbaycan rəhbərliyi hazırda Qərblə müəyyən danışıqlar aparır. Dünya bankı və Beynəlxalq Valyuta Fondu ilə sıx münasibətlər yaranıb. Azərbaycanda islahatların aparılması ilə bağlı ciddi hazırlıqlar gedir. Azərbaycan tərəfi artıq bu proseslərə qoşulub. Siyasi məhbuslar, insan haqları məsələsi ilə bağlı danışıqlar gedir. Prezidentin Münhen səfəri zamanı keçirdiyi görüşlərdə də bu məsələlər müzakirə olunub. Ayın sonunda Avropa Birliyinin xarici işlər üzrə komissarı Bakıya gəlir. Rəsmi Bakı qeyd etdiyim istiqamətlərdə müəyyən danışıqlara gedib. Bu baxımdan hazırda davam edən müzakirələrin nəticələrindən çox şey gözləmək olar.

**- Belə iddialar var ki, Azərbaycan və yəhudi lobbiləri arasındakı sıx əlaqələrə görə onlar sanksiyaların müzakirəsinə mane olur...**

- Bu iddianın doğruluğuna inanmıram. Sanksiyalar məsələsi ortalığa o zaman gəldi ki, ABŞ dəfələrlə Azərbaycan hakimiyyətinə müraciət edərək, ölkədə islahatların aparılmasının vacibliyini vurğulasa da, bu tələblər yerinə yetirilməmişdi. Çağırışlarda Azərbaycanın yenidən Yaxın Şərqdə üfüq rolunu oynamaq, 1918-ci il nümunəsini göstərmək, başqa ölkələri arxasınca aparmaq kimi nüanslar yer alırdı. Amma artıq məsələ tükənib. Amerikanın milli maraqları var. Milli maraqlar tələb edirsə ki, gündəm dəyişsin, deməli, dəyişəcək. Biz bu gün neftin qiymətinin aşağı düşməsi və bu kimi hallarda bunların şahidi oluruq. Heç bir vəsait bunun qarşısını ala bilməz.

**- Avropa İttifaqının Belarus prezidenti Aleksandr Lukaşenkoya qarşı sanksiyaları ləğv etməsinin Azərbaycan məsələsini də arxa plana atdığı iddia olunur...**

- Bu məsələləri bir-birinə bağlamaq lazım deyil. Lukaşenko Qərbin tələblərini prinsipcə qəbul etdi. Bu istiqamətdə bəzi addımları da atdı. Siyasi məhbusları buraxdı, müəyyən siyasi azadlıqlar verdi, Qərblə münasibətlərin düzəlməsinə səylər göstərdi. Nəticədə müəyyən problemlərin aradan qaldırılmasına nail oldu. Ukrayna məsələləri başlayandan Belarus Qərbə mesaj verməyə başladı ki, münasibətləri düzəltmək istəyir. Ciddi dəyişikliklər baş verdi, sonda sanksiyalar götürüldü.

### "Qiymətlərin yenidən 40-50 faiz yüksəlməsi mümkün deyil"

**- Sanksiyaların müzakirə edilməməsi Novruzda növbəti əfvə səbəb ola bilərmi?**

- Söhbət yalnız siyasi məhbuslardan getmir. Sadəcə, bu bir problemdir. Ortada Azərbaycanı demokratik, hüquqi dövlətə çevirmək məsələsi var. Burada iqtisadi kampaniya mühüm rol oynayır. Məsələn, media olaraq, bizim əvvəl iqtisadi, sonra siyasi, sonda isə yaradıcılıq müstəqilliyimizi məhdudlaşdırdılar. Maliyyə olmadan siyasi və yaradıcılıq azadlığı ola bilməz. Biznes sahəsində də bu siyasət aparıldı. Hazırda iqtisadi azadlıqların verilməsinə ehtiyac var. Bunlar olarsa, avtomatik siyasi azadlıqlar da mövcud olacaq. Azərbaycan dəyişikliklərə doğru gedəcək. Bu prosesi heç kəs saxlaya bilməz. Yaxşı olardı ki, bunu hakimiyyət çevik şəkildə özü eləsin. Çox təəssüf edirəm ki, bu proseslər təzyiq altında baş verir.

**- Devalvasiyadan az sonra rayonlarda bir sıra aksiyalar oldu. Bəzi iddialara görə, bu lokal və tez zamanda sönən aksiyaları hakimiyyət özü təşkil etmişdi. Bu nə dərəcədə doğrudur?**

- Buna inanmıram. Aksiyaların səbəbi hakimiyyətin özü oldu. Xalq gələcəklə bağlı narahat idi. Problemin həllinə ümid edirdilər. Amma hakimiyyət vəziyyətin normal olduğunu, uğurla inkişaf etdiklərini deyirdi. Nəticədə yanvarın 10-dan sonra aksiyalar başladı. Bir həftədən sonrakı çıxışında ölkə başçısı proqramların hazırlandığını, vəziyyətdən çıxış yolunun olacağını söylədi. Müəyyən ümidlər verildi. Bundan sonra aksiyalar səngidi. Bəzi məsələlər var ki, onun həyata keçirilməsi artıq gecikir. Çevik hərəkət etmək lazımdır. Aksiyalarda hakimiyyətin əlinin olmasını deməkdən daha çox, hökumətin insanları təxribata çəkdiyini söyləmək daha doğrudur. Hazırda hər şey hakimiyyətin atacağı addımlardan asılıdır.

**- Novruz bayramında üçüncü dəfə devalvasiya olacağı deyilir...**

- Açığı, bunu gözləmirəm. Sadəcə, pul kütləsinin artırılması baş verə bilər. İqtisadiyyatı canlandırmaq üçün. İnflyasiya gözləmirəm. Qiymətlər getdikcə aşağı düşəcək. Birdən-birə qiymətlərin yenidən 40-50 faiz yüksəlməsi mümkün deyil. Çünki hakimiyyət beynəlxalq maliyyə qurumlarının məsləhətləri ilə hərəkət edir. Prinsipcə vəziyyət nəzarətdədir. Amma çevik siyasətdən, aparılacaq islahatlardan çox şey asılıdır.

**- Azərbaycan müxalifətinin devalvasiya ilə bağlı fəaliyyətini qənaətbəxş sayırsınız?**

- Bunu dəfələrlə demişəm: biz elə bir vəziyyətə gələcəyik ki, iqtidarla müxalifət deyil, iqtidarla xalq üz-üzə duracaq. Bu prosesə yanvarda gördük. Bu gün xalqla hakimiyyətin problemi var. Burada təkcə kasıb təbəqələrdən söhbət getmir. Proseslərdən hamı zərər çəkir. Müxalifətin aktivliyi bu gün üçün gərək deyil. Hakimiyyət xalqın istəklərini təmin etməsə, proses başqa istiqamətə yönələcək. Bəlkə o zaman müxalifətin qarışması lazım olar.

**- Belə gərgin vəziyyətdə ehtiyac yoxdursa, müxalifətin varlığına nə gərək var?**

- Müxalifət bu gün konstruktiv addımlar atır. Proqramlarını təklif edir, xalqa və hökumətə çıxış yollarını göstərir. Stabilliyin pozulmasını istəmir. Doğru siyasətdir; gündəm dəyişib, sadəcə, müsbət mənada proseslərin getməsi üçün səylər göstərmək lazımdır. Hər kəs dəstək olmalıdır ki, hakimiyyət dəyişiklikləri çevik şəkildə etsin.



### "Rusiya-Türkiyə arasında tarixi anlaşma ola bilər"

**- Müxalifətin proqramlarındakı parlamentin buraxılması tələbi doğru idimi?**

- Bu tələb bir paket çərçivəsindədir. Amma əsas məsələ deyil. Çünki parlament dəyişsə belə, heç nə dəyişməyəcək. Amma işlək parlamentə böyük ehtiyac var. Küçələrdə həll olunmalı problemlər parlamentə daşınmalıdır.

**- Devalvasiyanın ortaya çıxardığı məsələlər "MTN işi"ni gündəmdən müəyyən qədər çıxardı. Bu proseslər bitdimi?**

- MTN məsələsini daxili problemlər saymırdım. Xarici problem idi. Rusiya tərəfdən baş vermişdi. Hesab olunurdu ki, Azərbaycan tərəfdən Rusiyaya qarşı istifadə olunur. Problemlər həll olundu. Qarşıdakı aylarda belə problemlərin yenidən qabaracağını gözləmirəm.

**- Suriyada Türkiyə-Rusiya ordusu üz-üzə dayanıb. Müharibə başlayırmı?**

- Düşünmürəm ki, müharibə başlasın. Hətta müəyyən vaxtdan sonra orada böyük əməkdaşlıq yarana bilər. Proses ona doğru da gedir. Suriyaya müdaxilə hər iki ölkəyə lazım idi. Bu, birbaşa daxili problemlərlə bağlı idi. Çünki Türkiyədə daxili problemlər çox ciddiləşmişdi. Rusiya üçün isə Gürcüstan və Ukraynadan sonra Suriya yeni layihə idi. Rusiya xarici faktordan düzgün istifadə edib, cəmiyyəti proseslərə qoşa bildi. Ərdoğan da bu yolu gedir. Birinci parlament seçkilərini uduzmuşdu. Amma Suriya proseslərinə girəndən sonra 1 noyabr seçkilərini uddu. Açıq şəkildə PKK-ya qarşı mübarizəyə başladı. Suriya məsələsi Türkiyədə gündəmi dəyişmək üçün müsbət rol oynadı. Bu prosesdən Rusiya və Türkiyə kifayət qədər bəhrələndi. Dövlətin stabilliyi ən önəmli məsələdir. Müəyyən məsələlər var ki, onları qurban vermək olar. Rusiya və Türkiyə istədiklərinə nail oldular.

**- Yeni Suriya məsələsi üzərindən Türkiyə-Rusiya tarixi yaxınlaşması ola bilər?**

- Əlbəttə ola bilər. Hətta deyərdim ki, bu qaçılmazdır. Amma müəyyən vaxt tələb edəcək. Proseslər barışığa doğru gedir. İnanmıram ki, bir uçaq üzərində o qədər yaxın əlaqələri, müttəfiqlikləri qurban versinlər. Hər iki ölkənin daxilindəki proseslər qarşılıqlı münasibətlərə təsir etmişdi. Ona görə də iki ölkə arasında pozulan münasibətləri təyyarə məsələsinə birbaşa bağlamaq doğru deyil. Əvvəlcədən başlayan proseslərin sonu idi. Müharibə vəziyyətdən çıxış yolu idi, amma bu baş vermədi. İdarə olunan prosesdir. Daxili vəziyyətləri düzələn kimi, problemlər yoluna düşəcək. Amma yaxınlaşma meylləri artıq var.

**- Azərbaycandan tərəf tutmaq anlamında açıq mövqe tələb oluna bilərmi?**

- Gəncədə sammit olacaq, orada bir çox məsələlər aydınlaşacaq. Görünən budur ki, Rusiya tərəfdən hələlik belə tələblər olunmur. Kifayət qədər bu prosesə neytral yanaşırlar. Bu gün Azərbaycanla Rusiyanın problemi yoxdur. Nəzərə alaq ki, İlham Əliyev vasitəçilik etmək üçün təklifini də irəli sürüb. 6 fevraldakı Nazarbayev-Davudoğlu görüşündə də Qazaxıstan prezidenti təklifini verdi. Gözləmək olar ki, Gəncədə də bu istiqamətdə müəyyən təşəbbüslər olsun. Rusiya bunu eşitməyə hazırdır. Azərbaycanın mövqeyi Qərbə tərəf gedir. Digər dövlətlərlə yollarımız ayrı deyil.

**- XİN rəsmisi Araz Əzimovun Bəşər Əsədlə bağlı fikirləri Azərbaycanın Rusiyaya meyllənməsi hesab oluna bilərmi?**

- Bu açıqlama Rusiyaya tərəf getdiyimiz anlamına gəlməməlidir. Çünki konkret Rusiya tərəfdə olmağımızla bağlı heç bir rəsmi saziş, bəyanat yoxdur. Hətta Münhendə Medvedyev çıxış edəndə dedi ki, Qərbə tərəf gedirik, Qərbin bir hissəsiyik. O, Qərbə səslənirdi ki, bizi qəbul edin, bizimlə əməkdaşlıq edin, sanksiyaları götürün. Bu baxımdan istiqamətin bir olduğunu düşünürəm.

**- Münhen konfransı Azərbaycan üçün neçə keçdi?**

- Prezidentin bu konfransla bağlı səfəri tez başladı. Bu onun üçün çox faydalı idi. Ona görə də maraqlı tərəflərlə görüşdü. Gələcək siyasətə bunun ciddi təsirləri olacaq.

❑ **Cavanşir ABBASLI**

# Mühacir politoloq anasının yasına gələ bilmir



## Görkəmli yazıçı Gülrux Əliyeva vəfat edib; Leyla Əliyeva: "Özümü tam itirmişəm..."

**Fevralın 15-də görkəmli yazıçı, Azərbaycan və SSRİ-nin dövlət xadimi olmuş Gülrux Əlibəyli vəfat edib. Mərhumun hazırda Avropa ölkələrinin birində mühacir həyatı yaşayan qızı, tanınmış politoloq Leyla Əliyevanın anasının yas mərasimində iştirakı sual altına düşüb.**

Belə ki, siyasi mühacirin öz ölkəsinə qayıdışı üçün dövlət qarantiya verməlidir. Leyla Əliyeva ilə bağlı bu qarantiyanı almaq mümkün olmayıb.

Bu barədə sosial şəbəkələr vasitəsilə əlaqə saxladığımız politoloqun özü məlumat verdi: "Dəfnə çata bilmədim. Yas mərasiminə gəlməyi mənə məsləhət bilmədilər. Çünki qarantiya barədə mənə məlumat verilmədi. Çox istəyirəm ki, anamın yas mərasimlərində iştirak edim. Amma bunun mümkün olacağını dəqiq bilmirəm. Açığı, heç bir aidiyyəti orqana yas mərasimində iştirak etməyimlə bağlı müraciət etməmişəm. Özümü tam itirmişəm, ona görə də hər hansı bir məsələ ilə bağlı qəti qərar verə bilmirəm. İnanmıram ki, yasda iştirak etməyim mümkün olsun".

**Siyasi mühacirin yaxınının yas mərasimində iştirakının prosedurlarını, təhlükəli olub-olmamasını araşdırdıq. Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı bildirdi ki, belə hallarda siyasi mühacirə verilən "mühacir" statusu ləğv olunur:** "Bu məsələ birbaşa siyasi mühacirin hansı ölkədə olmasına bağlıdır. Heç bir ölkə mühacirin yaxınının yasında iştirak etmək üçün ölkədən çıxışına qadağa qoymaz. Sadəcə, həmin ölkə mühacirin təhlükəsizliyini təmin edir. Amma siyasi mühacir öz ölkəsinə qayıdıb, təzədən xaricə gedirsə, o zaman artıq mühacir olmur. Bu statusu itirir. Mühacir o zaman sığınacaq istəyir ki, özünə qarşı hansısa bir təhlükə görür. Bu baxımdan Leyla xanım müraciət etsə, Azərbaycana gələ bilər. Ona təhlükə olması ehtimallarına gəlincə, deyə bilərəm ki, Leyla Əliyeva Azərbaycanı 2014-də tərk etdi. O zaman vətəndaş cəmiyyətinə basqı var idi. Onun da təşkilatını yoxlamışdılar. Leyla xanım ölkədən gedərkən, onun çıxışına hələ qadağa qoyulmamışdı. O, ölkəni tərk etməsə, təhlükə ola da bilərdi, olmaya da. Ən düzünü onun özü bilir. Ölkəyə gəlişinə heç bir qadağa qoyula bilməz. Amma yasda iştirak edəndən sonra onu təzədən prokurorluğa çağıra bilərlər. Çünki barəsindəki yoxlamalara son verilib-verilmədiyini dəqiq bilmirik. Amma yasdan sonra Leyla xanımın ölkədən çıxışına qadağa qoya bilərlər. Onun üçün çox ağırdır. Anası rəhmətə gedib, amma yanında ola bilmir. Gülrux xanım tanınmış şəxslərdən olub. Düşünürəm ki, Leyla xanım ağrı-acını xaricdə çəkəcək. Belə olması daha məqsədəuyğundur".


Leyla Əliyeva

❑ Cavanşir ABBASLI

# Dağlıq Qarabağa turist səfərlərinin qarşısını necə almaq olar?

## Ekspert "təxribat versiyası"ndan danışır, dövlət isə "qara siyahı" tətbiq edir

**İran vətəndaşları Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ ərazisinə səfər ediblər. BAKU.WS-in məlumatına görə, iranlı turistlərin erməni nəzarətində olan torpaqlarımıza səfərini əks etdirən video yayılıb. Görüntülərdə səfalı torpaqlar əks olunur. Həmçinin Azərbaycan mahnılarının sədaları altında səfər haqqında danışılır.**



Videogörüntülərdən açıq görünür ki, ermənilər rahat və qorxusuz məskunlaşıblar. Yollar , küçələr, yaşayış məntəqələri abaddır. Xankəndinin görüntüləri də bunu sübut edir. Düşmən torpaqlarımızı işğal edib və rahat yaşamaqdadır. Hətta turistlər də qəbul edir. Üstəlik, Suriyadan, Liviyadan ermənilər bu torpaqlara köçürülür. Təhlükəli tendensiyadır... Avropalılar DQ-yə səfər edəndə, Azərbaycan XİN həşir salır. Lakin iranlılar Ermənistanı və eləcə də Qarabağı su yoluna döndəriblər. Buna qarşı bəyanat verməli, etiraz etməliyikmi?

Mövzunun detallarına varmadan öncə qeyd edək ki, bu gün Çexiyanın "Echo24" portalında yayımlanan "Qafqazda yeni müharibə kimə əlverişlidir?" sərlövhəli məqalədə İranın Dağlıq Qarabağ məsələsindəki mövqeyinə yer verilib. Bu məqalədəki detallarla iranlı turistlərin Qarabağa səfəri arasında siyasi bağlar qurmaq mümkündür. Portal yazır ki, Dağlıq Qarabağ ərazisi beynəlxalq səviyyədə Azərbaycan ərazisi kimi tanınır: "Lakin burada etnik ermənilər yaşayır və ərazi Ermənistanla sərhəddədir. İki ölkə hələ I Dünya müharibəsi dövründə bu ərazi uğrunda vuruşurdu, lakin Sovet İttifaqı buna son qoydu. Ötən əsrin 80-ci illərinin sonunda isə münaqişə yenidən qızışdı. 1994-cü il atəşkəs imzalanana qədər Qarabağda müharibə getdi, nəticədə Azərbaycan öz ərazilərini itirməklə üzləşdi. Ermənistanın zəbt etdiyi bu ərazilərdə "Dağlıq Qarabağ Respublikası" yaradıldı. Bu kvazidövləti heç kim tanımır. "DQR" müstəqil olduğunu iddia edir, lakin heç kəsdə şübhə yoxdur ki, onu Ermənistan, dolayısı ilə Rusiya dəstəkləyir. Məhz Rusiyanın dəstəyi ilə zəif Ermənistan müharibədən qalib çıxmışdı. Azərbaycan münaqişə boyunca həmişə Türkiyənin dəstəyindən istifadə edib. Hər şeydən əvvəl hər iki dövlətin xalqı türkdür, həmçinin Ankaranın Qafqaza dair öz siyasi maraqları var. Azərbaycana dəstək verənlər sırasında Qərbin də əksər ölkəsi var idi. Müsəlman İran isə həmişə Ermənistanı dəstəkləyib. Burada İranın Türkiyə ilə rəqabəti ilə yanaşı, Cənubi Azərbaycanda yaşayan azərbaycanlılar faktoru da önəm daşıyır. Tehran hesab edirdi ki, Azərbaycanın müharibədə mümkün qələbəsi cənubdakı azərbaycanlıların ayağa qalxması və ona qarşı çıxması ilə nəticələnə bilər".

**Təhlükəsizlik üzrə mütəxəssis, MTN-in keçmiş zabiti İlham İsmayıl bildirdi ki, Dağlıq Qarabağa turistik səfərlər yenilik deyil. Daha doğrusu, bundan öncə sözügedən səfərlər Ermənistan vətəndaşları tərəfindən təşkil olunur, ermənilərin turları barədə mediada da yer alırdı. Onun sözlərinə görə, xüsusən də Kəlbəcər rayonuna belə səfərlər tez-tez təşkil olunub:** "Xarici vətəndaşların belə səfərlərinin qarşısının alınmasına gəlincə, burda da incə nüanslar var. Azərbaycanla dost münasibəti olan ölkələr çalışırlar ki, belə səfərlər etməsin. Çünki bu, turist səfəri deyil. Bu, qıcıqlandırmaq, Azərbaycana qarşı edilən bir haqsızlığa bu formada dəstək verməkdir. Rusiya, İran, eləcə də ərəb ölkələrindən dəfələrlə belə səfərlər baş tutub. Bir-iki dəfə Xarici İşlər Nazirliyi səviyyəsində bəyanatlar olub. Belə səfərlər edən konkret şəxslər, jurnalistlər, dövlət adamları olub ki, adları ölkəmizin "qara siyahı"sına salınıb. Bunlar beynəlxalq sivil yollardır".

**Müsahibimiz dedi ki, Azərbaycan dövlətinin bu məsələ ilə bağlı başqa xətləri ola bilər. Ekspertin sözlərinə görə, Dağlıq Qarabağ işğal zonasıdır:** "Azərbaycanın xüsusi xidmət orqanları təxribat törətməlidir. Turist də, ora köçüb gələn erməni də bilməlidir ki, hər an təxribat ola bilər. Nəsə tikməklə, ucaltmaqla oranı özlərininki edə bilməzlər. Anlamalıdılar ki, əvvəl-axır bu torpağın sahibi gələcək. Bununla bağlı gizli plan olmalıdır. Elə təxribat törədilməldiir ki, məsələnin ciddiyyəti, onun masştabı anlaşılsın".

**İ.İsmayıl bildirdi ki, bu məsələyə etiraz etmək üçün beynəlxalq qınaq, bəyanatlar yetərli deyil:** "Bu halda bizimlə soyuq münasibəti olan ölkələrin vətəndaşları, eləcə də ermənilərin özləri yenə bizim acığımıza gələcəklər. Yeni binalar tikəcəklər, məskunlaşma da artacaq".

❑ Sevinc TELMANQIZI

# Rusiyanın sifətinə vurulan ikinci sillə



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Siyasi həftə Türkiyə baş naziri Əhməd Davudoğlunun Kiyevdə verdiyi məlum və sensasion bəyanatla açıldı. Əslində möhtərəm Davudoğlu yeni bir şey də deməyib, hamının bildiyi reallıqları, sadəcə, dilə gətirib və işğalçı kimi Rusiya və Ermənistanı barmaqla göstərib.**

Gözlənildiyi kimi, Rusiyanın cavabı özünü çox gözlətmədi. Ancaq bu cavab dişsiz idi. Çünki Davudoğlunun konkret ittihamlarını qırağa qoyan Rusiya XİN rəsmisi, xanım Mariya Zaxarova Osmanlı İmperiyasından dəm vurur cavab bəyanatında.

Zaxarova bir kəlmə də demədi ki, "xeyr, cənab baş nazir, yanılırsınız, Moskva Ermənistanın arxasında dayanmır, heç vaxt da dayanmayıb". Belə şey eşitmədik. Yaxşı, lap tutaq, Rusiya Ermənistanı dəstəkləmir. Onda Moskvaya nə mane olur(du) ki, heç olmasa, Gürcüstan, Ukrayna bir qırağa, Azərbaycan ərazilərinin işğal altında olması faktını təsdiqləsin?!

Bu da olmadı. Yenə ABŞ rəsmiləri, həmsədr Ceyms Uorlik arada xala xətrinə "Dağlıq Qarabağ ətrafındakı 7 rayon Azərbaycana qaytarılmalıdır" tipli açıqlamalar verir, Rusiya bunu da dilə gətirmir. Elə təkcə buna görə Rusiya heç vaxt Türkiyə qədər Azərbaycanda rəğbət yiyəsi ola bilməz. Acı gerçək, sərt reallıq ayrı şeydir.

Söz düşmüşkən, Türkiyə baş nazirinin açıqlamasına uğursuz cavabında Rusiya XİN rəsmisi onu da deyib ki, "Türkiyə Rusiya ilə Azərbaycannın arasına girə bilməz". Zatən, Türkiyə çoxdan Bakı və Moskvanın arasındadır və bəlli məsələdir nəyə görə, necə. Bu xüsusda Əhməd Davudoğlunun Kiyev bəyanatı 24 noyabr "Su-24" insidentindən sonra Rusiyanın sifətinə vurulan ikinci şillə də sayıla bilər...

***

Deyirlər, siyasət çılpaq həqiqətləri sevmir. İş də ondadır ki, erməni, rus işğalı o qədər böyük həqiqətdir ki, onu danmaq böyük siyasətin belə, imkanları xaricindədir. Necə ki, beynəlxalq hüquqdan dəm vuran Rusiya forpost Ermənistanla birgə özünü illərdir gülünc və absurd duruma salıb - həm Dağlıq Qarabağ, Abxaziya, Cənubi Osetiya ilə bağlı, həm də Krım, Donbas məsələlərində.

Bəzi ifrat optimistlər də iddia edir ki, guya Rusiya-Türkiyə münasibətlərinin əvvəlki isti məcraya qayıtması Qarabağ münaqişənin həllinə münbit zəmin yarada bilər. Ancaq nədənsə unudulur ki, Moskva Ankara ilə tarix boyu az qala, ən ideal münasibətlərə malik olduğu dönəmdə - 24 noyabr təyyarə insidentindən əvvəl də Qarabağ məsələsinin həllinə təşəbbüs göstərməyib.

Yaddaşları təzələyək: qardaş ölkə hətta Qərbin iradəsi əleyhinə gedərək, Kremlə qarşı sanksiyalara qoşulmadı. NATO üzvü ola-ola şimal qonşumuzla yaxınlaşma siyasəti aparmaqda davam elədi. Gəl ki, yenə Rusiya Qarabağ məsələsinin çözümü üçün forpost Ermənistana hər hansı təzyiq göstərmədi. Bunun əlamətini görmədik. Heç "çırt" da olmadı - mətbuatın yazdığı və bir neçə ekspertin söylədiyi bəzi ehtimalvari fikirlərdən savayı. Hərgah, Rusiya arzulasa, məsələ cəmi bir həftənin içində yoluna qoyular.

Bütün bunlar bir daha şübhə yeri saxlamır ki, ixtilafın həlli Ankara-Moskva münasibətlərinin səviyyəsindən asılı deyil və Rusiya Qarabağ məsələsində istədiyi hədəflərə çatmasa, onun çözümünə yardımçı olmayacaq, əksinə, ermənin əli ilə onu qəlizləşdirməyə çalışacaq - necə ki, qəlizləşdirir.

Ya da Dağlıq Qarabağ konflikti o zaman dinc formada yoluna qoyulacaq ki, geosiyasi Rusiya amili tamamən təsirsiz hala gələcək və işğalçı Ermənistan da arxasız olduğunu anlayacaq. Başqa variant hələ ki, real görünmür - o cümlədən də torpaqlarımızın hərb yolu ilə azad olunması.

**Hələliksə, qardaş Türkiyəyə Kiyev bəyanatına görə atəşin bir TƏŞƏKKÜR bildirək! Rəsmi Bakı ona layiq davranmasa da...**

YENİ MÜSAVAT
N 37 (6358) 17 fevral 2016



# Yıxılmadan ölən diplomat

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud ölümün ASANlaşması üzrə xidmətlər

**Xarici işlər nazirinin müavini Araz Əzimov xaricdə bir qəzetə intervü verib, o qədər biabırçı sözlər danışıb ki, ölkə ictimaiyyəti mat qalıb. Deyirlər ondan belə hərəkət gözləmirdik.**

Qardaşlar, oyanın. Bu iqtidarın bütün kadrları aşağı-yuxarı eynidir. Sadəcə, Araz müəllimdən indiyə qədər belə səmimi intervü alan olmamışdı! *(Əslində heç onun intervü verməyi yadıma gəlmir).*

İqtisadçı ekspert Natiq Cəfərli haqda facebook-da təzəlikcə gülməli bir status yazmışdılar: "Natiq bəyin iqtidarda səhvini tuta bilmədiyi yeganə kadr Artur Rasizadədir, çünki Artur müəllim danışmır". Bax, Əzimovun intervüsü də həmin kateqoriyadan idi. Yazılması mümkünsüz bir lətifədəki kimi, gərək bunların müəyyən yerinə ip bağlansın, hər dəfə nəsə gülünc danışanda ipi dartan kimsə olsun.

Əzimovun açıqlamaları isə nəinki Azərbaycanın xarici siyasəti baxımından zərərlidir, üstəlik gülüncdür. Misal üçün, deyir Suriyada Əsəd hakimiyyətdə qalsa yaxşıdır. Halbuki bizim ən yaxın müttəfiqimiz Türkiyədən tutmuş, "birinci səfərlər məkanı" Parisə qədər dünyanın az qala hamısı Əsədin getməsini istəyir.

Yaxud müxbir deyir ölkənizdə niyə siyasi islahat yoxdur, Əzimov deyir niyə yoxdur, var, məsələn, mən keçən ay pasportumu 7 dəqiqəyə almışam. Sivil dünyadakı adi texniki prosedurdan vəcdə gəlibmiş. Xəbəri yoxdur ki, siyasi islahat ilk növbədə demokratik seçkini nəzərdə tutur.

Ancaq əlbəttə, insaf da yaxşı şeydir, Araz müəllimin iş yeri Penisentiar Xidmətə (PX) baxanda toya getməlidir. Ən azından, XİN-də səfirləri döyüb öldürmürlər, qaça bilən qaçır. Bax, elə bu dustaq ölümünə PX-in dünənki izahatı hüquqi nihilizmə aid dərsliklərə salınası şeydir. Sitat: "Məhkum Nurani İbrahimov qanunla nəzərdə tutulmuş gəzinti vaxtı qəflətən özünü pis hiss edərək yerə yıxılıb və ona göstərilən təxirəsalınmaz tibbi yardıma baxmayaraq, vəfat edib. Mərhumun meyitinin məhkəmə-tibb eksperti tərəfindən aparılmış ilkin xarici müayinəsi zamanı onun ölümünə səbəb olan xəsarətlər aşkarlanmayıb".

"Pis hiss eləyib", "yerə yıxılıb", "vəfat edib", "ölümə səbəb olan xəsarət aşkarlanmayıb" - bəs bu niyə ölüb? Bəlkə Amerikadan lazer şüası salıblar, qəsdən öldürüblər ki, dövlətçiliyimizə ziyan olsun? Bəlkə məhkumu cinlər öldürüblər? Mərhumun fotolarındakı böyük qara ləkələr isə türmədə meyitlərin boyanması üzrə hansısa humanitar aksiyadan yadigar sayılmalıdır.

Bizi dolayırlarmı? Qətiyyən bu fikirdə deyiləm. Onlar bizə ümumiyyətlə önəm vermirlər. Azərbaycan xalqı onların menyusunda heç desert rolunu da oynamır. Əl-üz dəsmalı, salfet bəlkə? İnanmıram. Onlar bizdən iyrənirlər, o üzdən ictimai görüşlərdə xətt çəkirlər, azı bir-iki metrlik məsafə qoyurlar. Bəs nə? Doğrusu, bunu hələ müəyyən edə bilməmişəm. Tapsam yazaram, birlikdə kef eləyərik.

Beyləqan rayonunda ata 6 yaşlı oğlunun başını kəsib. Bu dəhşətli cinayətin xırdalıqları haqda başqa yazılarda oxuya bilərsiniz. Ancaq qısa yazım ki, bu ailə faciəsinin yaranmasına doğru gələn uzun günlər var idi və həmin günlərdə cinayəti önləmək üçün profilaktik tədbir görməli polislər, başqa dövlət orqanları əllərini ağdan qaraya vurmayıblar. Elə cəmiyyət, uşağın öldürüldüyü kəndin sakinləri də özünü cəngəllik sakinləri kimi aparmışdır. Yeri gəlmişkən, bu yaxında Bakı ətrafında bir gənc intihar eləди, ailəsi də bərbad gündə yaşayır, mən bundan yazmışdım. Bir oxucu isə belə reaksiya bildirmişdi: "Səhv yazmısınız, Zığda belə iş olmayıb". Sən demə, texniki yanlışlıq üzündən Zirə yerinə Zığ yazmışam. Adamın dərdinə bax. Yazı, ordakı problem qalıb qıraqda, bunu Zirə yerinə Zığ getməsi narahat edir. Guya Zığda eyni vəziyyət deyil.

Hələ bir Ailə-Qadın-Uşaq Problemləri Dövlət Komitəsi var. Bu AQUPDK-ın şefi Hicran Hüseynova keçən ilin yayında Zərdabda guya vətəndaşları qəbul edib, orda Beyləqandan olan şikayətçilər də dinlənib. İndi qətlə yetirilən uşağın ailəsi görüşdə olubmu? Çətin. Ancaq ümid edirəm idarədə yeyinti ittihamlarından başı açılanda Hicran xanım bu ritorik suala cavab verər.

Hər halda, Əzimovun pasport almaq cavabı kimi olmasın. Yoxsa Beyləqandan Zərdaba getmək üçün azı 3 rayon basdalamaq lazımdır.



# Davudoğlunun söylədiyi həqiqət-rəsmi Bakı məqsədli susur

## "Rəsmi Bakı Rusiya ilə münasibətlər gərginləşməsin deyə..."

**Daim Azərbaycanın yanında olan Ankaranın növbəti dəfə prinsipiallıq nümayiş etdirməsi, Türkiyənin baş naziri Əhməd Davudoğlunun Ukraynada işğal olunmuş Qarabağdan bəhs etməsi gündəmin baş mövzularındandır.**

Kiyevdə həmkarı Arseni Yetsenyukla birlikdə mətbuat konfransında çıxış edən cənab Davudoğlu Rusiyanı beynəlxalq hüquq normalarını pozmaqda günahlandırıb. Bu zaman isə "Hazırda Rusiya 3 ölkədə işğalçı durumundadır - Ukrayna, Gürcüstan və Suriya. Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi də Rusiyanın dəstəyi ilə baş verib"-söyləyib. Bəlli səbəblərdən Ukraynanın ərazilərinin qəsbinə daha geniş yer ayıran baş nazirin Qarabağın işğalında Rusiya faktorunun olmasını açıqlaması əslində Türkiyə siyasətində yenilikdir. İndiyə qədər buna bənzər bəyanatlar digərləri tərəfindən səslənib. Məsələn, keçən il Almaniyanın kansleri A.Merkel Ermənistanın atəşkəsi pozmasının arxasında Rusiya faktorunun dayandığını xüsusi vurğulamışdı. Türkiyə bir qayda olaraq Rusiya ilə münasibətlərə xələl gətirəcək açıqlamalardan yayınırdı, ancaq artıq pərdələr götürülüb və Ankara da müasir dövrün həqiqətlərini uca səslə dilə gətirməyə başlayıb. Son günlər Qarabağ müharibəsinin alovlana biləcəyi, yaxud Rusiyanın Suriyanın ardınca Qarabağda da savaşa başlayacağı barədə xəbərlərin yayılması fonunda Ə.Davudoğlunun belə bir mövqe sərgiləməsi qarşıdakı təhlükələrin anonsu da sayılır. Ancaq fərqli fikirlər də var.

**Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiyaya qarşı mübarizə komitəsinin üzvü Zahid Oruc "Yeni Müsavat"a dedi ki, Qarabağ məsələsinin Türkiyənin xarici siyasət gündəliyində ön yerdə olması yeni hadisə deyil:** "Lakin indiki gerçəklikdə Davudoğlunun Rusiya ilə siyasi qarşıdurmada Cənubi Qafqazdakı problemləri dilə gətirməsinin özəl səbəbləri var. Ankara-Moskva arasında Suriyanın gələcəyinə dair kəskin ziddiyyətləri çözmək mümkün olmadı. İndi söhbət təkcə Bəşər Əsədin hakimiyyətdə qalmasından getmir. Qərb aktiv bir şəkildə Rusiyanı müxtəlif hərbi və iqtisadi zərbələrə məruz qoymaq üçün ixtilafları dərinləşdirmək xəttini yürüdür və ən başlıcası, öz əli ilə deyil, başqa dövlətləri səngərə çevirməklə oyun aparmır. Təəssüf ki, Türkiyə bu baxımdan hazırda daha çox vurulur. Söhbət Suriyadakı PYD qüvvələrinin hər cür maliyyə və silah yardımı almasından, "Kürdüstan" amilinin Türkiyənin ərazi bütöövlüyü əleyhinə istifadəsindən və Rusiya ilə toqquşmada hələ ki meydanda tək qalmasından gedir. Ona görə də Davudoğlunun Kiyevdə Krım və Qarabağ ətrafında xüsusi mesajlarla Kremlin üzərinə yeriməyi üstün tutması çoxlarına tarixi paraleldə düşünməyə vadar etdi ki, əcəba, Türkiyə ötən əsrin əvvəllərində olduğu kimi Azərbaycan məsələsini bolşevik və ya Yeltsin Rusiyası ilə toqquşmalarda aralıq vəsilə kimi istifadəmi etmək istəyir? Hər halda, gəlin razılaşaq ki, Cənubi Qafqazda Rusiya əleyhinə cəbhə açmaq indi bizim xeyrimizə deyil. Ona görə ölkə başçısının sabah sayın Ərdoğanla Gəncədə Moskva-Ankara arasında barışının missiyasını öz üzərinə götürəcəyinə əminəm".

**Z.Oruca görə, unutmaq olmaz ki, nə Krım cəbhəsində, nə də Qarabağda Qərb Türkiyəyə rusları hərbi cəhətdən əzməyə kömək etməyəcək:** "Kerrinin "ruslarla savaşmağımızı istəyirsiz" bəyatının nə demək olduğunu başa düşməyənlər azdır. Amerika Rusiyanın Suriyadakı mövcudluq faktını tanıyırsa, onda nə abxazları, nə də azərbaycanlıları yenidən anti-Rusiya cəbhəsinə qoşub müharibə üçün qaldırmaq olmaz. Biz bütün hallarda qardaş ölkə ilə eyni səngərdəyik. Lakin indi bizim müharibəmizi aparanlar yoxdur. Bütün Ermənistan boyu toplanan rus silahları bizim düşmənləri türk zərbəsindən qoruyur. Sayı 79 minə yaxın olan 58-ci ordu da Şimali Qafqazda komanda gözləyir. Ona görə biz Türkiyə-Rusiya müharibəsinin gələcəyində Qarabağın nicatını axtaranlarla eyni fikri bölüşmürük. Halbuki cəmi bir il öncə iki ölkənin strateji ortaqlığı bizə imkan verməmişdi ki, az qala Putin Türkiyə ilə birgə 5 rayonumuzun qaytarılması əmrini imzalayacaqdı. Nə qədər inanılmaz görünsə də fakt budur. Avrasiya məkanında iki keçmiş imperiya dövlətinin qovğası bizim maraqlarımıza uyğun deyil".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu hesab edir ki, Rusiya təhlükəsi Azərbaycan üçün həmişə var:** "Əlbəttə, biz Rusiya ilə normal qonşuluq münasibətlərinin tərəfdarıyıq, qonşu ölkəni qıcıqlandıran addımlardan çəkinirik. Ancaq bu dövlətin hazırkı siyasəti quruculuğa yox, dağıdıcılığa yönəlib. Sanki qonşu dövlətləri zəiflətmək üçün fürsət axtarırlar. Əvvəlcə Gürcüstanı parçaladılar, sonra keçdilər qardaş adlandırdıqları Ukraynaya, indi də "terrorçuları vururuq" bəhanəsi ilə Suriyada Əsəd hakimiyyətini gücləndirməklə məşğuldurdur, arada bombaları mülki insanları da öldürür. Ermənistanı da ona görə silahlandırır ki, Türkiyə və Azərbaycan qarşısında aciz və gücsüz olmasın. Hətta fərz etsək belə, Ermənistanın hazırkı hakimiyyəti qeyd-şərtsiz Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmağa hazırdır, Kreml buna imkan verməz. Çünki Kreml Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə Azərbaycanın əsas problemindən qurtulmasını və möhkəmlənməsini istəmir".

**E.Şahinoğlu dedi ki, böyük ehtimalla rəsmi Bakı bu açıqlamanı nə təsdiq, nə də təkzib edəcək:** "Təsdiq həqiqəti söyləməklə yanaşı, Rusiyaya meydan oxumaq, təkzib isə Rusiyanın torpaqlarımızın işğalında heç bir rol oynamadığını deməklə Davudoğlunu yalançı çıxarmaqdır ki, bu da Ankara ilə münasibətlərin soyuması deməkdir. Əslində Davudoğlu rəsmilərimizin Rusiya ilə bağlı qapılar arxasında söylədiyini açıq deyib. İki gün sonra Türkiyə prezidenti Rəcəb Təyyub Ərdoğan Gəncəyə gələcək, eyni fikri onun da Azərbaycanda söyləyəcəyi istisna deyil. Aydındır ki, rəsmi Bakı Rusiya ilə münasibətlər gərginləşməsin deyə, Dağlıq Qarabağın işğalında Rusiyanın adını hallandırmaqdan çəkinir. Ancaq rəsmilərimiz özləri də etiraf edir ki, Ermənistan təkbaşına torpaqlarımızı işğal edə bilməzdi. Demək, hansısa məqamda Davudoğlunun açıqlamasına reaksiya vermək də lazım gələ bilər. Azərbaycan rəsmiləri torpaqlarımızın işğalında Rusiyanın adını çəkə bilmirlərsə, heç olmazsa "Rusiya istəsə Ermənistan hakimiyyətinə təsir edib Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltdırа bilər" ifadəsini işlədə bilərlər".

❑ Cavid TURAN

## Ərdoğanın Bakı səfəri ərəfəsində şok olay

**Azərbaycan xarici işlər nazirinin müavini Araz Əzimov bugünlərdə Vyanaya səfər edib. Diplomat ATƏT-in Daimi Şurasının toplantısında iştirak edib və daha sonra Avstriya-Azərbaycan münasibətlərinə dair rəsmi görüşlər keçirib. Əzimov səfər çərçivəsində Avstriyanın nüfuzlu “Die Presse” qəzetinə müsahibə də verib.**




# Azərbaycanlı nazir müavininin Suriya açıqlaması aranı qarışdırdı - rəylər

### Araz Əzimovun Bəşər Əsədi dəstəkləməsi Türkiyəyə və sivil dünyaya qarşı xəyanət kimi qiymətləndirilir, onun istefası tələbləri səsləndi; iqtidaryönlü deputat nazir müavinini müdafiə elədi...

**“Azərbaycan Suriya müharibəsində kimin tərəfindədir” sualına cavabında Əzimov Türkiyənin yox, məhz Rusiya və İranın mövqeyi ilə səsləşən şok effektli fikirlər söyləyib. O, Bəşər Əsəd və onun ordusunu Suriyanın təhlükəsizliyinin qarantı adlandırıb:** “Biz Suriyada koalisiyaların qarşıdurmasının şahidi oluruq. İslam dünyasının bir hissəsi və region ölkəsi olaraq baş verənlərdən narahatıq. Biz islam dünyasında şiələrlə sünnülər arasında dərinləşməkdə olan parçalanmalardan da narahatlıq keçiririk. Azərbaycan tolerant ölkədir, bizdə bütün dinlər bir yerdə problemsiz yaşayır. Suriyada 200-300 azərbaycanlı döyüşür. Rusiyanın və digərlərinin hava zərbələri o qədər də effektiv deyil, həm də baha başa gəlir. Yerüstü qüvvələr yeritmək isə riskli olardı və çoxlu itkilər hesabına başa gələrdi. Atı arabadan qabağa qoşmaq olmaz. Addım-addım irəliləmək lazımdır. Bəşər Əsəd prezident kimi hazırda ərazi bütövlüyünün və təhlükəsizliyin yeganə qarantıdır. Onun ordusu hüquqi institutdur. Biz Əsədin varisi tərəfindən əvəzlənənə qədər prezident kimi qalmasını nəzərdə tutan hərtərəfli siyasi prosesi dəstəkləyirik”.

**“Bu məsələdə siz Türkiyə ilə razı deyilsiniz” sualına isə Əzimovun cavabı belə olub:** “Biz Türkiyənin narahatlıqlarını başa düşürük. İraq Kürdüstanındakı PKK gücləri türklər üçün təhlükəsizlik problemidir. Suriyanın Türkiyə ilə şimal bölgələrində də kürdlər irəliləyir. Əgər sabah Əsəd getsə, biz buna qarşı çıxmayacağıq. Biz hərtərəfli stabilləşmə prosesinin tərəfdarıyıq. Qurudan hücum əməliyyatlarının deyil, çünki istənilən koalisiya ora öz quru qüvvələrini göndərsə xaos daha da böyüyəcək”.

**Azərbaycanın müxalifət düşərgəsi və müstəqil siyasi analitiklər Araz Əzimovun Bəşər Əsəd və onun ordusu haqqında verdiyi bəyanata sərt münasibət bildiriblər.**

**Müsavat Partiyasının başqanı Arif Hacılı “Yeni Müsavat”a açıqlamasında öncə regionda vəziyyətin gərginləşməkdə davam etdiyini xatırlatdı:** “Xüsusilə Türkiyə-Rusiya münasibətlərinin indiki durumu, eyni zamanda Suriya ilə bağlı Qərb dövlətləri ilə Rusiya-İran-Suriya koalisiyası arasında gərginliyin artması təbii ki, hansısa ciddi dəyişikliklərin olması ehtimallarını artırır. Azərbaycan bu vəziyyətdən öz maraqları üçün istifadə etməyə çalışmalıdır. Bu prosesdə də Azərbaycan öz xarici siyasətini əsas müttəfiqimiz olan Türkiyə ilə uzlaşdırmalıdır. Son dövrlərdə Türkiyənin rəsmi dövlət nümayəndələri, o cümlədən Türkiyəyə rəhbərlik edən şəxslər dalbadal Azərbaycanın maraqlarını əks etdirən açıqlamalar verir. Eyni zamanda Azərbaycanın birinci problemi olan Qarabağ probleminin həlli istiqamətində hansısa addımları atmağa hazır olduqlarını bəyan edirlər. Belə bir məqamda Azərbaycan hakimiyyətinin rəsmi nümayəndəsinin Rusiya-İran-Bəşər Əsəd koalisiyasını dəstəkləyən mövqe sərgiləməsi haqqa-ədalətə, Suriyada məhv edilən günahsız Suriya vətəndaşlarına, bu ölkədən didərgin salınan milyonlarla insana, orada faciələr yaşayan türkmən soydaşlarımıza qarşı həqarətdir.

Ancaq bu açıqlamanın zərəri bununla da bitmir. Bütövlükdə bu mövqe Türkiyəyə və sivil dünyaya qarşı xəyanətdir, Azərbaycanın milli maraqlarına ağır zərbədir. Ona görə Azərbaycan hakimiyyəti yol verilən bu səhvi dərhal düzəltməli, öz mövqeyini Azərbaycanın milli maraqlarına, bütövlükdə bəşəri dəyərlərə uyğunlaşdırmalı, Araz Əzimov isə dərhal istefaya göndərilməlidir".

**Ümid Partiyasının sədri İqbal Ağazadə isə bildirdi ki, Azərbaycan hökuməti əvvəldən Bəşər Əsəd məsələsində Əsədi qanuni hakimiyyət hesab edib:** “Araz Əzimovun belə mövqeni sərgiləməyinin də səbəblərindən biri odur ki, hakimiyyət Əsədi həmişə qanuni seçilmiş prezident hesab eləyib. Artıq Əsədə legitim prezident demək olmaz. Çünki ölkə xaos içindədir, darmadağın olub. Azərbaycan hökumətinin bu mövqeyi sərgiləməsi təkcə Rusiya ilə bağlı məsələ deyil. Bir az fərqli məqamlar da var. Əsədin devrilməsi nəticə etibarilə Azərbaycan hakimiyyətində də bəzi narahatçılıqlar yarada bilər deyə, nazir müavini o tipli ifadələr işlədib. Amma bunu heç də Türkiyəni yox, Rusiyanı dəstəkləmək kimi qiymətləndirmirəm. Hələlik Əsədə qarşı rəsmi koalisiya formalaşmayıb. Biz Türkiyənin yanındayıq. Türkiyənin mövqeyini Azərbaycan müdafiə edəcək. Araz Əzimovun dediyini indiki halda nəbz yoxlaması hesab edirəm. Ola bilər Araz Əzimovdan sonra daha yüksək rütbəlilər Türkiyəni dəstəkləyən bəyanat versin. Görünür, hansısa gözləntiləri var”.

**ADP sədri Sərdar Cəlaloğlu bildirdi ki, Araz Əzimovun açıqlaması hökumətin xarici siyasət apara bilməməsinin, beynəlxalq hüququ bilməməsinin, Rusiyaya bağlı olmasının göstəricisidir:** “Bəşər Əsədi və onun əli qanlı muzdlu silahlılarını legitim hesab etməyin başqa adı yoxdur. Araz Əzimovun bəyanatı Rusiya siyasətinin dəstəklənməsi deməkdir. Bizim strateji müttəfiqimiz Türkiyənin mövqeyindən fərqli mövqe ortaya qoymaq Türkiyəyə arxadan zərbə vurmaq, Türkiyəyə xəyanətdir. Mən bunu qətiyyətlə pisləyirəm. Azərbaycan xalqı Türkiyənin yanındadır. Türkiyənin maraqları bizim maraqlarımızdır, bizim müstəqilliyimizin təminatı da Türkiyə ilə müttəfiqlikdən asılıdır. Türkiyənin maraqlarına zidd mövqe ortaya qoymaq ”5-ci kolo"nun maraqlarını müdafiə edənlərin, Azərbaycanı yenidən Rusiya imperiyasının sərhədlərinə daxil olmasını istəyən qüvvələrin mövqeyidir. Bəşər Əsəd legitim ola bilməz. Əgər bir ölkədə vətəndaş müharibəsi gedirsə, o ölkədə legitim hakimiyyətdən söhbət gedə bilməz. Xalq Əsədi qəbul eləmir, 10 milyonlarla adam ölkəni tərk edib, yerdə qalan vətəndaşlar onunla vuruşur. Belə vəziyyətdə hansı qarantiyadan, hansı legitimlikdən danışırlar?! Bəşər Əsəd öz xalqına qarşı qırğın törətmiş cinayətkardır. Beynəlxalq hüquqa görə də gec-tez qanun qarşısında cavab verəcək. Rusiya onu satacaq. Azərbaycan isə bugünkü davranışına görə çətin durumda qalacaq. Türkmənistan Türkiyəyə görə Rusiya ilə qaz alverini dayandırdı. Qazaxıstan bəyan etdi ki, Türkiyə ilə münasibətləri pozmaq fikrində deyil. Digər türk dövlətləri də Türkiyəni müdafiə elədi. Hətta Rusiya Federasiyasının tərkibində olan Tatarıstan və Başqırdıstan belə, Türkiyə ilə münasibətlərin pozulmasına görə Rusiyaya etiraz elədi. Azərbaycan hökuməti isə Rusiyanın uzaq quberniyası kimi Rusiyanın mövqeyinə oxşar mövqe ortaya qoyur".

**Müstəqil siyasi analitiklər də Araz Əzimovun ortaya qoyduğu mövqenin yanlış olduğunu bildiriblər. Siyasi şərhçi Elxan Şahinoğlu bildirib ki, Araz Əzimovun Əsədlə bağlı fikirləri Rusiya və İran rəsmilərinin fikirləri ilə tamamən üst-üstə düşür:** “Məgər biz Suriya məsələsində Moskva və Tehranın mövqeyini müdafiə edirik? Araz Əzimovdan heç kim tələb etmir ki, Qərb və Türkiyə liderləri kimi desin ki, Əsəd getməlidir. Bu bizim dərdimiz deyil, heç prezident İlham Əliyev Əsədi dəstəkləyən açıqlamalar vermir, Suriyadakı vəziyyətlə bağlı ümumi ifadələr işlədir, çünki bilir ki, Əsədin günahları terrorçuların günahlarından az deyil. Görəsən, illərin diplomatı Araz Əzimov Əsədin adını çəkmədən Suriyadakı durumla bağlı ümumi ifadələr tapa bilməzdi? Araz Əzimov prezidentdən çoxmu ağıllıdır?

Məncə, Araz Əzimovun müsahibəsindəki fikirlərə ya özü, ya da XİN açıqlama gətirməlidir. Əks halda, Qərbdə və Türkiyədə Azərbaycanı İran və Rusiya ilə yanaşı Əsədin dəstəkçiləri siyahısına aid edəcəklər".

**Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Zahid Oruc isə modern.az-a deyib ki, Araz Əzimov sırf rəsmi hüququn konstatasiyasından, gerçək vəziyyətin ifadəsindən çıxış edib:** “Azərbaycan Bəşər Əsədin hakimiyyətdən getməsinin tərəfində olan, bundan ötrü hətta hərbi cəhətdən addımlar atmağa hazır olan qardaş Türkiyənin strategiyasını əngəlləmək niyyətində deyil. Bununla yanaşı, İran və Rusiya kimi Bəşər Əsədin yanında olmaq kimi bir fəaliyyətə də ortaqlıq nümayiş etdirilmir.

Biz rəsmi hüquq dili ilə danışsaq, deməliyik ki, Suriya xalqı Bəşər Əsədi özünə prezident seçib. Tarix də sübut etdi ki, 21 milyonluq xalq Bəşər Əsədi taxtdan salmaq istəsəydi, 100 min sayında olan bir ordu yaradıb, bu istiqamətdə addımlar atardı. Amma hadisələr göstərdi ki, Suriya xalqı Bəşər Əsədi hakimiyyətdən devirmək istəmir. Mənə bunun əksini kimsə göstərmək istəsə, onun arqumentlərinin havadan asılı qaldığını söyləyəcəyik".

Z.Orucun fikrincə, Əsədin getməsinin sülhün optimal variantı olduğunu deyənlər yanılırlar: “Problemin Bəşər Əsədin şəxsiyyətində olduğunu deyən adamlar belə düşünür ki, o gedən kimi sülh bərqərar olacaq. İŞİD isə nə ”Əl Qaidə", nə də “Taliban”dır. İŞİD artıq özünü real hakimiyyətə çevirib. Demək ayıb olmasın, bu cini şüşədən buraxıblar, deyək ki, cinlərin biri Bəşər Əsəddir. Yaxşı, o birilərini kim tutub yenidən öz şüşəsinə salacaq? Böyük güclər deyir ki, onların əsas hədəfi qlobal terrordur. Yaxşı, sual edirəm, İŞİD gəlib öz-özünə təslim olacaq? Ona görə də məsələnin beynəlxalq informasiya kanallarının əli ilə dünyaya tirajladıqları kimi olmadığını hamı bilməlidir. Azərbaycan da bu mənada əlahiddə mövqe göstərməyib. Araz Əzimov bu fikri dilə gətirir ki, bu gün Suriya ətrafında, onun gələcəyini, arxitekturasını qurmaq istəyənlər İraqda, Liviyada, Əfqanıstanda sülhü təmin edə bilməyiblər. Əsəd öz xalqı ilə birgə qərar verməlidir. Müharibə olsa, Bəşər Əsəd ən yaxşı halda onu müdafiə edən ölkələrdən birinə sığınacaq. Ya da Qəzzafinin taleyini yaşayacaq. Bəs bununla bölgəyə sülh gələcəkmi? Əsədin hakimiyyətdən getməsi Suriyada tayfa, məzhəb davalarının bəlkə də 10 illərlə davam etməsinə gətirib çıxaracaq".

❑ **Etibar SEYİDAĞA**




# Komitə sədrinin adı 170 minlik rüşvət qalmaqalına qarışdı

## Şəmkirin icra başçısı müavininin də AQUPDK xətti ilə təyinatı iddiası ortaya çıxdı

**Vəkil Adəm Məmmədov adını açıqlamaq istəmədiyi müvəkkilinin Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) sədri Hicran Hüseynovaya işə düzəlmək məqsədilə 170 min dollar verdiyini iddia edir. Vəkil deyir ki, müvəkkili Hicran Hüseynovanın yerlisidir: "Hər iki şəxs Qubadlı rayonundandır. Rayonlarında tanınan şəxsdir. Əlimizdə Hicran Hüseynovaya, aparat rəhbəri Səfər İmanova qarşı ittiham irəli sürmək üçün ciddi sübutlar var. Sübutları istintaqa da təqdim etmişik. Məlumatları açıqlasaq, bu, istintaqın gedişinə maneçilik törədər. İş hazırda prokurorluqda araşdırılır".**

Vəkil bildirib ki, pul illər öncə ödənilib, lakin hər dəfə müvəkkilinə verilən söz vəd olaraq qalıb. Odur ki, istintaqa müraciət etmək zorunda qalıblar: "Məsələ 2012-ci ildən bəri davam edir. Müvəkkilim dəfələrlə pulu geri almaq üçün Hicran Hüseynova və Səfər İmanovla görüşüb. Axırıncı dəfə yanvarın 31-nə pulu qaytaracaqlarına söz verdilər. O tarixdən etibarən də Səfər İmanov ölkədən qaçdı. Əslində müvəkkilim adi bir iş üçün Hicran Hüseynovaya müraciət edib. Amma Hicran Hüseynova özü ona icra başçının müavini olmaqla bağlı təklif irəli sürüb. Baxıblar ki, adamın imkanı var, ona görə bu işi təklif ediblər. Bu məsələdən sonra isə müvəkkilim müflis vəziyyətə düşüb".

"Yeni Müsavat" redaksiyasına daxil olan məlumatda iddia olunur ki, AQUPDK ilə bağlı qalmaqal bir yox, bir neçə nəfəri əhatə edir. Komitə xətti ilə əvvəllər də başçı müavini təyinatları baş tutub. Belə təyinatlardan biri də Şəmkirin İcra Hakimiyyətində gerçəkləşib.

**Qaynağımız iddia edib ki, Şəmkirin icra başçısı Alimpaşa Məmmədovun müavini Məleykə Əlizadə də komitə xətti ilə bu vəzifəyə gətirilib:** "Belə ki, Sədaqət Qəhrəmanova ilə yaxın rəfiqə olan Məleykə Əlizadə vəzifəyə təyin olunmazdan əvvəl komitənin xətti ilə bir çox layihələrin Heydər Əliyev Mərkəzində keçirilməsinə nail olub. Əvvəllər universitetdə dərs dediyi müddətdə tələbələri get-gələ salan müəllim kimi ad çıxarıb. İndi də Şəmkirdə vətəndaşlarla tələbələrlə davrandığı kimi davranır".

AQUPDK mətbuat xidmətinin rəhbəri Elgün Səfərovla əlaqə saxlayıb iddialara münasibət öyrəndik.

**Xidmət rəhbəri dedi ki, məsələnin araşdırılması üçün Baş Prokurorluğa müraciət ünvanlayıblar:** "Komitənin veb-saytında rəsmi münasibət yayınlanıb. Məsələ ilə bağlı dövlət qurumuna vətəndaşlar deyil, komitə müraciət edib. Vətəndaşlar bizə müraciət edib, biz də həmin müraciətləri müvafiq quruma göndərmişik. Hazırda Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsindən cavab gözləyirik. Bizdə Səfər İmanovun bu işdə iştirakını təsdiq və ya təkzib edən konkret sübut yoxdur. Ona görə də cavab gözləyirik ki, daha dəqiq açıqlama verək".

Xidmət rəhbəri "siz vəkilin dediyi kimi 170 min manat pulun Hicran xanımın kabinetində Səfər İmanova verildiyi ilə bağlı nə deyə bilərsiz" sualına "bizdə bu haqda fakt yoxdur. Biz bunu necə təsdiq və ya təkzib edə bilərik?" deyə, cavablandırıb.

**Xidmət rəhbəri H.Hüseynovanın məsələ ilə bağlı dindirilib-dindirilməməsi ilə bağlı suala belə cavab verdi:** "Hazırda ərizənin böhtan olub-olmaması məsələsi araşdırılır. Hicran xanım bu məsələ ilə bağlı dindirilməyib. Komitədən başqa bu məsələnin araşdırılması ilə bağlı müraciət edən olmayıb. Biz maraqlıyıq ki, bu məsələ araşdırılsın".

Xidmət rəhbəri Şəmkir İcra Hakimiyyətinin başçı müavini ilə bağlı iddialara belə cavab verib: "Bu haqda bizdə hər hansı bir məlumat yoxdur".

Günün sonunda vəkil Adəm Məmmədov APA-ya açıqlamasında bildirib ki, araşdırmalar nəticəsində məlum olub ki, S.İmanov bu il yanvarın 31-də Bakı-İstanbul reysi ilə ölkəni tərk edib. Ölkədən qaçmazdan əvvəl isə Azərbaycanda olan bütün mülklərini satıb.

**Mövzuya qayıdacağıq.**

❑ E.MƏMMƏDƏLİYEV

# Müxalifətdən qocaların YAP-a buraxılmamasına reaksiya

## Sərdar Cəlaloğlu: "Yüz yaşında adam gəlsə də, partiyaya üzv qəbul olunmalıdır"




**Yeni Azərbaycan Partiyası (YAP) icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov "Report"a müsahibəsində bildirib ki, YAP-ın sıraları gündən-günə genişlənir. Təkcə 2015-ci ildə partiya sıralarına 20 min nəfər üzv qəbul edilib. Bunların da 75 faizi gənclərdir.**

**S.Novruzov** partiyaya qəbul məsələsinə çox ciddi yanaşdıqlarını, yaşlı nəslin nümayəndələrinin YAP-a qəbulunu dayandırdıqlarını açıqlayıb: "Yaşlı insanlar üzvlük üçün müraciət edərkən onlarla bağlı araşdırma aparırıq. Araşdırmanın nəticəsindən asılı olaraq, qərar qəbul edəcəyik. Tutaq ki, 50-60 yaşlı insan partiyaya üzv olursa, deməli, burada hansısa məqsədi var. Belə hallar bir neçə dəfə olub. Elə insanlar olub ki, bələdiyyə seçkilərində qələbə qazanmaq üçün partiya sıralarına üzv olublar. Biz belə halların qarşısını alırıq. Bütövlükdə isə partiya inkişaf edir, süni nəsə yoxdur".

**Bəs müxalifət partiyalarına üzvlərin qəbulunda yuxarı yaş senzi tətbiq edilirmi? Müxalifət partiyaları yaş məhdudiyyətinin qoyulmasına necə yanaşır?**



**ADP sədri Sərdar Cəlaloğlu bildirdi ki, rəhbərlik etdiyi partiyaya 18 yaşdan yuxarı Azərbaycan vətəndaşları heç bir yaş məhdudiyyəti qoyulmadan qəbul edilir:** "Konstitusiyaya görə vətəndaşlar könüllü olaraq birləşmək hüququna malikdir. Bu hüquqlardan biri də siyasi partiya üzvü olmaqdır. 18 yaşı tamam olmuş hər bir Azərbaycan vətəndaşı siyasi partiyaya üzv olmaq hüququna malikdir. Kimsə yaşlanmış vətəndaşların yaşını əsas göstərib partiya üzvlüyünə qəbuluna yasaq qoyursa, bu, konstitusiyanın pozulmasıdır. Yüz yaşında adam gəlsə də partiyaya üzv qəbul olunmalıdır. Tutaq ki, birinin 20 yaşı var, ancaq iflicdir, çarpayıdan qalxa bilmir. Bunu yaşı gəncdir deyə partiyaya üzv qəbul edirsən, birinin isə 80 yaşı var, lakin sağlamdır, təfəkkürü çox gözəldir, iş qabiliyyəti yüksəkdir, bunun yaşının 80 olmasını bəhanə edib partiyaya üzv qəbul etmirsən. Bu, nə məntiqdir? Bu, hər şeydən əvvəl konstitusiyaya ziddir".

**Müsavat Partiyasının başqanı Arif Hacılı bildirdi ki, "Yaş senzi YAP-çıların sevimli mövzusudur:** "Yeni Azərbaycan Partiyası faktiki olaraq öz siyasi fəaliyyətinə Azərbaycan Respublikasının prezidentliyinə namizədlərə qoyulan yaş senzinin aradan qaldırılması üçün siyasi kampaniya ilə başlamışdı. Şuşa və Laçının işğal olunması təhlükəsinin olduğu məqamda Azərbaycan Xalq Cəbhəsi kimi nəhəng bir təşkilat kütləvi aksiyalara moratorium qoymuşdu, bütün gücünü ərazilərimizin qorunması uğrunda mübarizəyə yönəltmişdi. O dövrdə Siyavuş Novruzovun da daxil olduğu məhdud bir dəstə daim prezidentliyə namizədlərə qoyulan yaş senzinin aradan qaldırılması məqsədilə aksiyalar keçirir və Azərbaycanın bütün digər problemlərini kənara qoyaraq yalnız bu məsələ ilə məşğul olurdu. İndi onların partiya üzvlüyünə qəbul məsələsində yaş senzinin tətbiq olunması təklifini irəli sürməsi bu kontekstdə çox qəribə səslənir. Həm də belə davranış konstitusiyaya, beynəlxalq hüquq normalarına, insan haqlarına ziddir. 18 yaşı tamam olmuş hər bir vətəndaşın seçmək və seçilmək hüququ var. Seçmək və seçilmək hüququna malik olan vətəndaşların partiya üzvü olmasına yaş məhdudiyyəti qoyula bilməz".

**Ümid Partiyasının sədri İqbal Ağazadə qeyd etdi ki, vətəndaşın partiya üzvlüyünə qəbulunda yuxarı yaş senzinin qoyulması qanuna, insan hüquqlarına, konstitusiyaya, partiyanın nizamnaməsinə ziddir:** "Siyasi partiya nizamnaməsini, prinsiplərini qəbul edən 18 yaşı tamam olmuş hər bir Azərbaycan vətəndaşını üzvlüyə qəbul etməyə borcludur. Yaş ayrıcılığını ortaya qoymaq vətəndaşların hüquqlarını pozmaqdır. Ümid Partiyasının qapıları partiyanın nizamnaməsini qəbul eləyən hər bir 18 yaşı tamam olmuş Azərbaycan vətəndaşı üçün açıqdır. Ümid Partiyasında 102 yaşı olan partiya üzvümüz var. Goranboy rayonunda yaşayır".

❑ Etibar SEYİDAĞA

# Kim xizək sürə bilir?

## Müxalifətdən ilginc cavablar



**Azərbaycanda bir çox məmurlar, iqtidar nümayəndələri qış aylarında əsasən "Şahdağ" Turizm Mərkəzinə gedərək, orada istirahət edirlər. Məmurların xizək sürərkən çəkdirdikləri fotolara sosial şəbəkələrdə, müxtəlif xəbər saytlarında da rast gəlmək olur.**

Bəs ölkə müxalifətinin nümayəndələri necə, xizək sürə bilirlərmi?

**KXCP sədrinin müavini Xəzər Teyyublu** bildirib ki, Azərbaycanda bu idman növünə uyğun təbii şərait olmadığı üçün xizək sürə bilmir: "Biz uşaq olduğumuz zaman Azərbaycanda indiki kimi xizək sürməyə yerlər mövcud deyildi. Ona görə də bunu öyrənməmişik. Ümumiyyətlə, bu sahə inkişaf etməyib. Ancaq hər halda, hesab edirəm ki, xizək sürmək maraqlıdır. Qismət olar, nə zamansa biz də xizək sürməyi öyrənərik. Lakin hazırda bunu bacarmıram".

**Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa xizək sürmək bacarığının olduğunu bildirdi:** ""Şahdağ" Turizm Mərkəzində sürməsəm də, xaricdə olduğum zaman xizək sürmüşəm. Rusiyada və Ukraynada olduğum zaman xizək sürsəm də, bunu peşəkarcasına bacarmıram. Ancaq buna baxmayaraq, qış mühitində xizək sürməyi xoşlayıram".

**Politoloq Hikmət Hacızadə** isə bildirdi ki, Azərbaycanda xizək sürmək mümkün deyil: "Qar var ki, xizək də sürək?"

**"AG blok"un təsisçilərindən olan Tural Abbaslı da xizək sürə bilməyənlər sırasındadır:** "İndiyə qədər xizək sürməmişəm. Heç buna meylim də olmayıb. Hesab edirəm ki, xizək sürmək həm təhlükəlidir, həm də bizim region üçün uyğun idman növü deyil. Xizək sürmək istirahət, əyləncə məqsədi daşıyır. "Şahdağ"da milyardlar hesabına xizək sürmək üçün yer qurublar. Ancaq ora hələ ki gedib çıxa bilməmişik. Bizim əyləncələrimiz daha standartdır".

**Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev isə söylədi ki, ümumiyyətlə, "Şahdağ" Turizm Mərkəzini tanımır:** "Vallah, heç oranı tanımıram. Xizək sürməyə gəlincə isə bacarığım yoxdur. Ancaq futbolla məşğul olmuşam. Eyni zamanda orta məktəbdə oxuduğum zaman boksla məşğul olmuşam".

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 37 (6358) 17 fevral 2016

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Ermənistan və Rusiya Qarabağın ortaq işğalçıları kimi

## Türkiyə onları barmaqla göstərdi, bəs sonra? Rəsmi Moskvanın cavab reaksiyası isə Kremlin ərazilərimizin işğalı arxasında dayanmaqda davam edəcəyini təsdiqlədi; konfliktin həlli yalnız bir halda Moskvasız mümkündür, o da...

**Türkiyənin baş naziri Əhməd Davudoğlunun Ukrayna səfəri çərçivəsində Azərbaycan da daxil, yaxın qonşulara münasibətdə Rusiyanı işğalçılıq və ilhaqçılıq siyasəti aparmaqda tənqid etməsi, şübhəsiz, haqqına idi. Bu açıqlamaya Rusiya XİN-in verdiyi operativ reaksiya isə adekvat deyil və ola da bilməzdi. Çünki Kreml etiraf eləməsə də hamı bilir ki, təcavüzkar Ermənistanın arxasında Rusiya dayanıb.**






"Abxaziyadan başlanan situasiya Krımda davam edir. Hazırda üç ölkə var ki, onların ərazi bütövlüyünü Rusiya pozub - Gürcüstan, Ukrayna, Suriya. Rusiyanın kömək elədiyi Ermənistanın davranışı üzündən Azərbaycanın ərazi bütövlüyü də indi təhlükədədir" deyən baş nazir Davudoğlu bununla sözsüz ki, Dağlıq Qarabağ konflikti də daxil olmaqla, postsovet məkanındakı etnik-ərazi münaqişələrinin əsas baiskarının məhz Rusiya olduğunu açıq bəyan edib, Rusiyanı barmaqla göstərib.

Baş nazir bunu da haqlı olaraq qeyd edib ki, Rusiyanın Ukraynadakı əməllərinə beynəlxalq birlik vaxtında lazımi reaksiyanı versəydi, Rusiya bəlkə də Suriyaya girməyə cəsarət etməzdi. Bu fikri inkişaf etdirsək, sayın Davudoğlu bununla həm də diqqətə çatdırıb ki, Rusiyanın birbaşa və dolayı dəstəyi ilə Azərbaycan və Gürcüstan ərazilərinin işğalına vaxtında göz yumulmasaydı, Krım da işğal olunmaz, Donbasda Rusiya hərbçiləri indi at oynatmazdı.

O ki qaldı Rusiyanın Türkiyə baş nazirinin açıqlamasına verdiyi operativ reaksiyaya, bunu yüzdə-yüz dişsiz saymaq olar. Çünki orada Ə.Davudoğlunun ittihamına məntiqli bir cavab, kontur-arqument yoxdur. Xüsusən də Rusiyanın işğalçı Ermənistanı dəstəkləməsi ilə bağlı fikrə hər hansı reaksiyanın bildirilməməsi təsadüfi deyil. Yəni Rusiya XİN rəsmisi Mariya Zaxarova dedi ki, "xeyr, bu - yalandır, biz işğalçıya dəstək vermirik". Həmçinin o, Azərbaycan ərazilərinin işğalını formal şəkildə olsa da pisləmədi.

Yeri gəlmişkən, 25 illik münaqişə tarixində bircə Rusiya rəsmisi də erməni işğalını pisləyən bəyanat verməyib. Təbii ki, Gürcüstana, Ukraynaya münasibətdə də analoji bəyanatın şahidi olmamışıq. Bu da elə Türkiyə baş nazirinin sözlərinin əyani təsdiqidir ki, Rusiyanın həm özü işğalçı dövlətdir, həm də işğalçı rejimlərin (Ermənistanın) müttəfiqi və dostudur.

***

Şübhə yox ki, bu reallığı Azərbaycan və onun rəhbərliyi də gözəl bilir, sadəcə, ehtiyatlılıq səbəbindən Bakı etiraf eləmir. Bu yerdə qeyd edək ki, bəzi ekspertlərin fikrincə, Davudoğlunun son bəyanatı rəsmi Bakını çətin sual qarşında qoyub. Məsələn, **politoloq Elxan Şahinğolu** hesab edir ki, Bakı Davudoğlunun fikirlərini təsdiqləsə, Rusiyaya meydan oxumuş kimi çıxacaq, təkzib isə Davudoğlunu yalançı çıxarmaqdır ki, bu da Ankara ilə münasibətlərin soyumasına gətirə bilər.

"Əslində Davudoğlu rəsmilərimizin Rusiya ilə bağlı qapalı qapılar arxasında söylədiyini deyib. Sabah Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Gəncəyə gələcək, eyni fikri onun da Azərbaycanda söyləyəcəyi istisna deyil. Aydındır ki, Bakı Rusiya ilə münasibətlər gərginləşməsin deyə, Dağlıq Qarabağın işğalında Rusiyanın adını hallandırmaqdan çəkinir. Ancaq rəsmilərimiz özləri də etiraf edir ki, Ermənistan təkbaşına torpaqlarımızı işğal edə bilməzdi. Demək, hansısa məqamda Davudoğlunun açıqlamasına reaksiya vermək də lazım gələ bilər. Azərbaycan rəsmiləri torpaqlarımızın işğalında Rusiyanın adını çəkə bilmirlərsə, heç olmazsa "Rusiya istəsə, Ermənistan hakimiyyətinə təsir edib, Dağlıq Qarabağ ətrafındakı boşalda bilər" ifadəsini işlədə bilərlər" - vurğulayıb ekspert.

Rəsmi Bakı əlbəttə ki, Azərbaycan torpaqlarının işğalının uzanmasında, sülh danışıqlarının on illərdir nəticə verməməsində Moskvanın erməninin əli ilə destruktiv rol oynamasının əsas amil olduğunun da yaxşı fərqindədir. Ancaq nə etməli ki, belə bır qorxulu dövlətlə qonşuluq Azərbaycanın taleyinə yazılıb və istəsək də, istəməsək də, onunla əlaqələri normal saxlamaq qaçılmazdır.

**Bunu Azərbaycan XİN başçısı Elmar Məmmədyarovun Türkiyə-Rusiya münasibətlərində davam eləməkdə olan gərginliklə bağlı son açıqlaması da təsdiqləyir.** "Təəssüflər olsun ki, döyüş təyyarəsi ilə bağlı insident iki ölkə arasında münasibətlərə mənfi təsir etdi. Rusiya və Türkiyə arasında münasibətlərin hazırkı durumu heç bir halda Azərbaycan üçün arzuolunan deyil. Deməyə ehtiyac yoxdur ki, həm Türkiyə, həm də Rusiya Cənubi Qafqaz və onun hüdudları xaricində təhlükəsizlik və sabitliyin təmin edilməsində vacib rol oynayır", - deyə Məmmədyarov bildirib.

**Nazir ardınca qeyd edib ki, Azərbaycan bütün mümkün vasitələrlə iki ölkə ilə münasibətlərin möhkəmlənməsində maraqlıdır:** "Ümid edirik ki, birgə səylərin nəticəsi olaraq Türkiyə və Rusiya arasında münasibətlər dialoq və qarşılıq anlayış yolu ilə normallaşacaq".

***

Bu ümidlər həm də Dağlıq Qarabağ probleminin dinc yolla, ədalətli həlli ilə bağlıdır. Azərbaycan, eləcə də bəzi ifrat optimistlər güman edir ki, Rusiya və Türkiyə arasında münasibətlərin əvvəlki isti məcraya qayıtması Qarabağ münaqişənin həllinə münbit zəmin yarada bilər.

Ancaq bu zaman nədənsə unudulur ki, Rusiya Türkiyə ilə az qala ideal münasibətlərə malik olduğu dönəmdə - təyyarə insidentindən əvvəl də Qarabağ məsələsinin həllinə təşəbbüs göstərməyib. Qardaş ölkə hətta Qərbə qarşı gedərək, Rusiyaya qarşı sanksiyalara qoşulmadı, di gəl, yenə də Moskva Qarabağ məsələsinin çözümü üçün forpost Ermənistana heç bir təzyiq göstərmədi. Bunun əlamətini görmədik. Halbuki Kreml arzulasa, məsələ cəmi bir həftənin içində yoluna qoyular.

Bütün bunlar bir daha şübhə yeri saxlamır ki, ixtilaflın həlli Ankara-Moskva münasibətlərinin səviyyəsindən asılı deyil və Rusiya Qarabağ məsələsində istədiyi hədəflərə çatmasa, onun çözümünə yardımçı olmayacaq, əksinə, erməni əli ilə onu qəlizləşdirməyə çalışacaq. Ya da Dağlıq Qarabağ konflikti o zaman dinc formada yoluna qoyulacaq ki, Rusiya amili tam təsirsiz hala gələcək və işğalçı Ermənistan arxasız olduğunu anlayacaq. Başqa variant hələ ki real görünmür - o cümlədən hərb variantı.

## "Regionun hərbiləşdirilməsi ermənilərin əli ilə həyata keçirilir"

### Qabil Hüseynli: "Rusiya Cənubi Qafqaz üçün böyük təhlükəyə çevrilməkdədir..."

**Avropada qoşunların saxlanılmasına dair kvotanı çoxdan pozan Rusiya indi Ermənistan vasitəsilə bunu pərdələməyə çalışır. Bu barədə axar.az-a politoloq Qabil Hüseynli deyib. Sabiq dövlət müşaviri Rusiyanın getdikcə Cənubi Qafqaz üçün böyük təhlükəyə çevrildiyini deyib:**



"Regionun hərbiləşdirilməsi də Rusiyanın əli ilə həyata keçirilir. Rusiyanın bu bölgədə bir missiyasi var: Cənubi Qafqazı daim maraq dairəsində saxlamaq və Qərbin bu regiona nüfuz etməsinə imkan verməmək. Bir müddət öncə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının rəhbəri belə bir bəyanat verdi ki, Gümrüdəki 102-ci hərbi baza regionda sabitliyi qorumağa xidmət edir. Bu, sadəcə, çox uğursuz bir bəyanatdır. Ermənistanın sürətlə silahlandırılması həm bölgədə Rusiyanın maraqları naminə həyata keçirilir, həm də Türkiyə ilə ehtimal edilən münaqişədə bu ölkəyə qarşı istifadə etmək üçün nəzərdə tutulub. Kremldən ermənilərə də məhz bu cür izahat verirlər ki, Moskva İrəvanı qərbdə Türkiyədən, şərqdə isə Azərbaycandan qoruyur".

**Politoloq Ermənistanda yerləşdirilən silahlı qüvvələrin Yaxın Şərqə istiqamətlənməsinə də toxunub:** "Əgər bu bölgədə hava hücumundan müdafiə sistemi qurulursa, deməli, o ad altında eyni zamanda müxtəlif raket kompleksləri də yerləşdirilir. Məqsəd isə Suriya, İraq və digər bölgələri çox asanlıqla hədəfə almaqdır. Rusiya silahlı qüvvələrinin ən böyük dəstələrinin məhz bu bölgədə yerləşdirilməsinin əsas səbəbi budur".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi



# Marketlərə "spirtnoy" qadağası

**Samir SARI**

**Dostlar, simsarlar bilir, mənim il ərzində spirtli içki (məsələn, pivə) qəbuletmə rasionum orta statisik rusun, almanın, çexin, belçikalının bir-iki günlük rasionuna bərabər olar, ya olmaz. Başqa sözlə, əgər onlar il ərzində bir sistern pivə içirlərsə, mənimki bir kanisrdən (5-6 litr) artıq deyil.**

Axırıncı dəfə pivəni dekabrda Belçikada olarkən içmişdim. O da səfər yoldaşlarımın israrla "Dünyanın ən yaxşı pivəsi "Stella"dır" deyə tərifləməsindən sonra.

Ümumiyyətlə götürsək, spirtli içki içərək ictimai yerlərdə insanlara problem yaradanları, spirtli içki içib sükan arxasında oturanları, toyda-nişanda qədərindən artıq içib özünü, nəslini rəzil edənləri görən gözüm yoxdur.

Ancaq spirtli içkinin haram buyurulması və qadağan edilməsi ilə də razılaşmaq mümkün deyil. Çünki bu mayeni qəbul edib-etməmək sırf insan haqlarıyla, insan azadlığı ilə bağlı məsələdir. Şotlandiyada azı 250 ildir zavod viskisi içirlər, amma bu 250 ildə o ölkədə sərxoşların saldığı dava-dalaş bizdə bir toy mövsümündə olduğu qədər deyil. Almanlar il on iki ay pivə sümürürlər, yeri gələndə dalaşırlar da, amma kütləvi halda bıçaqlaşmırlar, tayfa davası salmırlar.

"İlin-günün bu vaxtında bu nə içki söhbətidir" desəniz, deyim: bugünlərdə ürəyim son iki ayda ilk dəfə pivə istədi. Dostumuz Niyaz demişkən, "zero"ya, yəni "hacı pivəsi"nə də razıydım, di gəl, yeddi marketə daxil oldum, heç birində bir qurtum pivə tapmadım.

Çoxdan bəllidir, bəzi marketlər şəbəkəsi var ki, sahibləri özlərini halal adam sayırlar və dini əqidələri üzündən haram buyrulmuş spirtli içkiləri satmırlar. Bələlərinin bəziləri dinin haram buyurduğu hər şeyi edirlər, məsələn, qiymətləri süni şəkildə artırırlar, sələmə pul verirlər, zina edirlər, hər lotuluğa qol qoyurlar, amma spirtli içki satmırlar. Bu, onların öz inanclarına nə dərəcədə sədaqətli olmalarının bəlkə də yeganə əlaməti, sübutudur. Bunlar heç.

Bəs sahibləri mömin olmayan marketlərdə niyə spirtli içki satılmır? Bir satıcıdan soruşdum ki, əmoğlu, Səudiyyə Ərəbistanı kimi şəriət ölkəsi qurmusunuz, nədir, niyə heç olmasa pivə satmırsınız, alan yoxdurmu?

Satıcı kədərli gözləri ilə gülümsəyib dedi ki, vallah, bizdən olsa satarıq, bayramlarda gəlib şampan istəyən çox olur, pivə soruşanlar da həmişə var, amma sata bilmirik. Niyə? Satıcı sözünə davam edərək dedi ki, vergi işçiləri bizi sıxırlar, elə bilirlər, araq-çaxır satanlar milyon qazanır, daha çox vergi istəyirlər, biz də başımızı bəlaya salmaq istəmirik.

Mat qalmalı işdir. Bu nə deməkdir? Bir mağazanın alver dövriyyəsi kassa aparatıyla tənzimlənmirmi? Market nə qədər alver edibsə, hamısı kassadan keçir və ona uyğun olaraq da vergisini verir, elədirsə, nəyə görə spirtli içkiyə görə əlavə vergi verməlidirlər? Özü də görün o vergi o dərəcədədir ki, bir sıra market sahibləri spirtli içki satmaqdan bilmərrə imtina edirlər.

Dünən bu xüsusda sosial şəbəkədə bir-iki cümlə yazdım və ona yazılan şərhlər məni, türkün sözü,heyrətlərə düşürdü.

Heç demə, bir müddət əvvəl Vergilər Nazirliyində vergi qanunvericiliyinə edilən dəyişikliklərlə bağlı mətbuat konfransı keçirilib və o konfransda vergilər nazirinin birinci müavini Natiq Əmirov bildirib ki, içki içib uğur qazanan adam hələ görməyib. Nazir müavini elə beləcə də deyib: "Biz zərərli olan məsələlərin həlli üçün bir yerdən başlamalıyıq. Bu gün bəzi yerlərdə, hətta müqəddəs yerlərin ətrafında spirtli içki satılır".

Əstəğfürullah, elə şeymi olar? Sonradan yadıma düşdü ki, bəli, o vaxt Əmirov belə bir söz demişdi, amma məhz onun sözündən sonra ölkədəkə marketlərdə alkoqolizmə qarşı mübarizə başladığını güman etmək çətin idi.

Belə çıxır ki, cənab nazir müavini mətbuat konfransında açıqlama verməklə yetinməyib, "bir yerlərdən başlayaraq", tabeçiliyində olanlara ölkədə spirtli içki satışını mıhdudlaşdırmaq göstərişi verib. Bəlkə də heç elə şey olmayıb, amma belə çıxır. Satıcılar da belə deyir: "Spirtnoy satanda vergi bizi sıxır".

Hələ adamın yadına cari ilin əvvəlində spirtli içkilərin kartla satılması haqq-hesabı düşür. O ideya 2-3 günün içində iflasa uğradı, amma hələ də bilinmir ki, o kimin başının altından çıxmışdı.

Dini tolerantlıqdan çox danışırıq, amma belə görünür ki, ölkədə yavaş-yavaş şəriət rejimi qurmaq istəyənlər var.

# Bakıda böyük köç anonsu: köhnə binalar söküləcək

## Paytaxtın bütün doqquz mikrorayonunda bəzi 5, 7 və 9 mərtəbəli köhnə binaların yerinə yeni binaların tikilməsi ilə bağlı konsepsiya hazırlanıb

**Bakıda ötən əsrin 60-cı illərində tikilən "xruşşovka"lar 25 il üçün nəzərdə tutulsa da, artıq ikinci 25 illiyini başa vurub. Beton konstruksiyalardan tikilən bu binaların yarım əsrdən çoxdur ki, istismar edilməsi artıq təhlükənin nə dərəcədə ciddi olmasından xəbər verir.**

Mütəxəssislər həyəcan təbili çalır. Adi halda bu binalar hələ bir neçə il istismara yarasa da, hər hansı fövqəladə hal, zəlzələ və sair baş verərsə, kiçik bir təkana belə davam gətirə bilməz. Bakının demək olar ki, əksər rayonlarında mövcud olan bu tipli köhnə binalarda müşahidə aparsaq, bəzilərində çatlar yarandığının və qəzalı vəziyyətdə olduğunun şahidi olarıq. Onu da qeyd edək ki, paytaxtda binaların təxminən 10-15 faizi məhz "xruşşovka" tipli binalardır. Qəzalı vəziyyətdə olan binalara fransız və Minsk layihəli binaları da aid edə bilərik.

**Hökumət də durumun fərqindədir. Fevralin 16-da fövqəladə hallar naziri Kəmaləddin Heydərov sahibkarlarla görüşündə də bildirib ki, Bakının bütün doqquz mikrorayonunda bəzi 5, 7 və 9 mərtəbəli köhnə binaların yerinə yeni binaların tikilməsi ilə bağlı konsepsiya hazırlanıb:** "Həmin binalarda yaşayan sakinlər yeni mənzillərə köçürüləcək. Tikinti şirkətlərinə bu layihədə iştirak etmələri tövsiyə olunur".

**Mənzil məsələləri üzrə ekspert Ramil Osmanlı da "Yeni Müsavat"a açıqlamasında, "xruşşovka"ların istismar müddətini başa vurduğunu və təhlükə mənbəyinə çevrildiyini bildirdi:** ""Xruşşov" layihəli çoxmənzilli binaların tikintisi əsasən ötən əsrin 60-cı illərində həyata keçirilib. Bu binalarda daha çox beton faner konstruksiyalardan istifadə olunub. Burada istismar dövrü çox əhəmiyyətli məsələdir. Bəziləri düşünür ki, bu binalar 15-20 il üçün nəzərdə tutulub. Lakin bu da səhv yanaşmadır. Heç bir çoxmənzilli bina belə qısa müddət üçün nəzərdə tutula bilməzdi. Amma həmin binaların da yaşı artıq 50-ni ötüb və o tikililərin bəzilərində möhkəmlətmə, bərkitmə işləri aparılmasına baxmayaraq, bu binalar həm istismar dövrünü başa vurub, həm də mövcud beynəlxalq standartları nəzərə alsaq, yaşayış minimumu tələblərinə cavab vermir.



Lakin Bakıda "Xruşşov layihəli" binalardan daha köhnə binalar var. Bunlara fransız və Minsk layihəli tikililəri misal çəkə bilərik. Hazırda bazarda müəyyən qədər normal qəbul olunan və alqı-satqıya cəlb olunan "Stalin layihəli" tikililərin də adını çəkmək olar".

**Bu binaların təhlükəsizlik tələblərinə cavab verməsi məsələsinə gəlincə, Ramil Osmanlı bildirdi ki, beton konstruksiya ilə inşa olunmuş bir bina artıq 50 illik tarixi əhatə edirsə, onun istismar müddəti başa çatmış və ya başa çatmaqda olan kimi qəbul oluna bilər:** "Burada həmin tikililərin yaşayış minimumu tələblərinə cavab verməməsi də aktualdır. Bu baxımdan hesab edirəm ki, fransız, Minsk və "Xruşşov layihəli" tikililərin yeni və müasir standartlara cavab verən mənzillərlə əvəz olunmasına ehtiyac var.

Paytaxtın müxtəlif ərazilərində belə tikililər var. Yasamal rayonunda, Nəsimi rayonunun mikrorayonlar hissəsində var, "8-ci kilometr" adı ilə tanıdığımız ərazidə, "Qara Qarayev" metro stansiyası yaxınlığında kifayət qədər bu cür tikililər var. Həmin dövrlərdə şəhərsalma ilə bağlı aparılmış tədbirlər çərçivəsində şəhərin bütün ərazilərində, yaşayışın çox olduğu yerləri əhatə edib. Bu ərazilərin hamısında köhnə binalar mövcuddur".

**Binaların müəyyən müddətə çökmə ehtimalının olmasına münasibət bildirən ekspert vurğuladı ki, hər hansı bir fövqəladə hal baş verdiyi təqdirdə həmin binaların çökməsi istisna deyil:** "Bu tikililərin yeni binalarla əvəzlənməsi həm şəhərsalma baxımından, paytaxtın nəqliyyat infrastrukturunun bərpası baxımından, həm də sakinlərin daha yaxşı mənzillərdə yaşaması baxımından önəmlidir. Xarici təcrübədə şəhərsalma proqramları vaxtaşırı nəzərdən keçirilir. Məsələn, Bakı şəhərində sonuncu şəhərsalma proqramı - Bakı şəhərinin baş planı ötən əsrin 70-ci illərinin sonunda qəbul olunub, ondan sonra həmin sənəd yenilənməyib. Ancaq xarici ölkələrdə həmin sənədlər müvafiq dövrlər ərzində, hər 20-25 ildən bir yenilənir. Həmin baş planlarda tikililərin istismar müddəti qeyd olunur. Heç bir bina ömürlük tikilmir. Şəhərlərin baş planına uyğun olaraq araşdırma aparılır və qəzalı binalar ləğv olunur. Bu ölkələrdə insan faktoru daha öncədir. Bu baxımdan Avropa ölkələrində şəhərsalma ilə bağlı tədbirlər qanunvericiliyə uyğun olaraq həyata keçirilir və o müddət heç vaxt pozula bilməz. Əgər bina 50 il üçün nəzərdə tutulubsa, onu 55-60 il istismar etməyə yol verilməz".

**Ramil Osmanlı yeni tikililərin müasir standartlar əsasında tikilməsinin də vacibliyini vurğuladı:** "Bakının yeni müfəssəl planı hazırlansa da, hələ ki Nazirlər Kabineti tərəfindən təsdiqlənməyib. Bu qərardan çox şey asılı olacaq. İndi Bakı şəhərində 2003-cü ildən başlayaraq, yeni tikililərin tikilməsinə başlanıldı və onlarda Avropa standartlarına əməl olunmağa başlandı. Əvvəlki beton konstruksiyalardan imtina olundu, binalar künclərdən armaturla bərkidilməyə başladı. Əgər əvvəllər yalnız binalar künc hissələrdən bir-birinə bərkidilirdisə, indi orta hissələrdən də armaturla bərkidilir".

❑ **Nərgiz LİFTİYEVA**

# Beyləqanda qan donduran cinayət: atası 6 yaşlı Ümidin boğazını kəsdi

## Hadisəni törədən Zahid İsgəndərov tutulub

**Beyləqan rayonunda dəhşətli qətl hadisəsi baş verib. Rayonun Yuxarı Kəbirli kənd sakini Zahid İsgəndərov 6 yaşlı oğlu Ümidin boğazını kəsərək öldürüb. Z.İsgəndərov hadisəni törətdikdən sonra qaçıb. Yuxarı Kəbirli kəndinin bələdiyyə sədri Tofiq Məmmədov azvision.az-a açıqlamasında qətli törədən Zahid İsgəndərovun hadisə baş verən zaman içkili olduğunu deyib. "Hadisə gecə saatlarında baş verib. Çox dəhşətli hadisədir. Bütün kənd şok içindədir. Övladını vəhşicəsinə öldürən Zahid kənddə usta işləyirdi. O, suvaq, hörgü işləri ilə məşğul olurdu. Gecə səhərə qədər onun axtarışları aparılıb".**

T.Məmmədovun sözlərinə görə, Z.İsgəndərov övladını ona məxsus pay torpağına apararaq orada qətlə yetirib: "Ümid birinci sinifdə oxuyurdu. Çox ağıllı, çevik uşaq idi. Zahid Ümidin boğazını bıçaq sümüyə dirənənə qədər kəsib. O, evin böyük uşağı idi. Hadisə baş verən zaman Ümidin anası evdə olmayıb, rayona atası evinə gedibmiş. Heç kim hadisənin səbəbini bilmir. Bütün kənd Zahidi lənətləyir. İnsan nə qədər qaniçən olmalıdır ki, 6 yaşlı uşağı vəhşicəsinə öldürsün. Zahid içkili olanda özünü idarə edə bilmirdi. Ola bilsin ki, uşaq onun sözünə baxmayıb, ya da nəsə söz deyib, ona görə də öldürüb. Yəqin ki, tapılandan sonra cinayəti hansı səbəbə törətdiyini etiraf edəcək".

APA-nın yerli bürosunun xəbərinə görə, Beyləqan rayonunun Yuxarı Kəbirli kənd sakini Zahid İsgəndərov tutularaq rayon prokurorluğuna gətirilib.

Qatilin qardaşı Vahid İsgəndərov musavat.com-a açıqlamasında hadisənin başvermə səbəblərini açıqlayıb. Onun sözlərinə görə, buna səbəb qardaşı ilə qayınatası və yoldaşı arasında son günlər baş verən mübahisə olub. Z.İsgəndərov oğlunu anasına vermək istəmirmiş. Hətta buna görə bir neçə dəfə qayınatası ilə aralarında ciddi mübahisələr olub və qayınatası ondan polisə şikayət edib.





**Dəhşətli qətli törədən Z.İsgəndərov daha sonra qardaşına zəng edib və oğlunu öldürdüyünü söyləyib:** "Çox vaxt axşamlar uşağı kəndə mağazaya aparırdı. Elə həmin gün də bu adla uşağı evdən götürüb. Qardaşım içki içən idi. Amma uşağa indiyə qədər bir sillə belə vurduğunu görməmişəm. İçəndən sonra başqaları ilə dalaşardı, onları söyərdi. Amma uşağına heç nə etməzdi. Axşam zəng elədi, dedi ki, uşağın başını kəsmişəm. Dəhşətə gəldim, inanmadım. Dedi ki, filan yerdədir, gedin götürün".

**Vahid İsgəndərov qardaşının belə bir əməl törətməsinin səbəbi kimi yoldaşı və qayınatası arasında olan mübahisəli vəziyyəti göstərdi:** "Hadisəyə səbəb onların münaqişəli ailə olması oldu. Yoldaşı bundan ayrılmaq istəyirdi. Uşağın biri kənddə, bizimlə qalırdı. Biri də anası ilə qalırdı. Onlar da məhkəməyə verib, uşağı qardaşımdan almaq istəyirdilər. Bunların rəsmi nikahları belə yoxdur. Yoldaşı atası ilə birləşib uşağı almaq istəyirdi. Bu da vermirdi. Axırı da belə dəhşətlə sona çatdı".

Musavat.com-un əldə etdiyi digər məlumata görə, son vaxtlaradək Z.İsgəndərovla qayınatası arasında münasibətlər normal olub. Hətta onlar bir neçə gün əvvəl birlikdə yeyib-içiblər də. Bu məclisdən sonra söhbət yenə də uşağın qaytarılması məsələsindən düşüb. Tərəflər bir-birini təhqir edərək mübahisə ediblər. Bundan sonra isə qayınatası Zahidi polisə şikayət edib. Z.İsgəndərov məhkəməyə verilərsə təqdirdə uşağın ondan alınacağını bilib. Hər gün içki içən Z.İsgəndərov uşağı anasına və qayınatasına vermək istəmədiyi üçün bu addımı atıb.

❑ **İLKİN**

YENİ MÜSAVAT
N 37 (6358) 17 fevral 2016

**Prezident İlham Əliyevin 20 gün öncə ölkə gəncləri ilə görüşündə çıxışı zamanı AXC-Müsavat iqtidarının yüksək vəzifəli şəxslərini tənqid edərkən səsləndirdiyi “flyuger” ifadəsi artıq hakimiyyət mediasında məqalələrdə bir termin kimi işlədilməkdədir. Məsələn, “Yeni Azərbaycan” qəzeti özünün dünənki sayında AXCP sədri Əli Kərimlinin hədəf seçildiyi böyük həcmli məqaləsində bu ifadədən bir termin kimi istifadə edib.**

# İqtidar mediasında yeni termin-“flyuger”

## Prezidentin gənclərlə görüşdə səsləndirdiyi bu ifadənin mənası nədir?



Xatırladaq ki, prezident Əli Kərimlini tənqidində bu ifadəni dilə gətirmişdi. Qeyd etmişdi ki, AXC-Müsavat iqtidarında dövlət katibi komsomolçu idi, sonradan flyuger kimi əqidəsini dəyişmiş və xalq hərəkatına qoşulmuşdu.

“Yeni Azərbaycan” qəzetinin son sayında dərc olunan “Şər üçbucağı” və bir flyuger" başlıqlı böyük həcmli məqalədə flyuger sözü hətta məqalənin başlığına belə çıxarılıb. Məqalədə AXCP sədri Əli Kərimli kəskin ittihamlara məruz qoyulub. Qeyd edilib ki, onun adı satqınlıqla assosiasiya olunur. Qeyd edilir ki, Əli Kərimli 2000-ci ildə Əbülfəz Elçibəyin vəfatından sonra ümumi müxalifət cəbhəsində qarşıdurmaların, parçalanmaların katalizatoru rolunu oynayıb.

Qəzet Əli Kərimlinin fərqli fikrə və tənqidə dözümsüz olması haqda da yazıb. Qeyd edib ki, siyasi xarakteristikasından qırmızı xətlə keçən əsas məqamlardan biri odur ki, AXCP sədri fərqli fikirlərdən “cin sancaqdan qorxan kimi” qaçır, ən yumşaq tənqidə belə dözmür. Bunun dəqiq təsdiqlərindən biri onun özünün və faktiki olaraq idarə etdiyi “Azadlıq” qəzetinin sosial şəbəkələrdəki səhifələrində əks fikirlərə və real diskussiyaya qoyulan qadağadır: **"“Yeni Azərbaycan” qəzetinin ötən saylarından birində dərc olunan “Əli Kərimli: savadsız senzor, yoxsa müştəbeh despot?” başlıqlı yazıda onun sosial şəbəkə istifadəçilərinə qarşı tətbiq etdiyi senzuranın ifşa olunmasından sonra, Əli Kərimli həyatında bəlkə də ilk dəfə olaraq tənqiddən nəticə çıxarıb qadağanı aradan götürdü. Bundan sonra onun və rəhbərlik etdiyi qəzetin “Facebook” səhifələri fəal gənclərin tənqidi fikirləri ilə dolub-daşdı. Amma bu vəziyyət cəmi üç gün çəkdi. Yenidən fərqli fikirlərə qarşı “bloklama” və “silmə” əməliyyatlarına başlandı".**

Məqalədə AXCP sədrinin nəzarətində olan bir sıra facebook fəalları da flyuger adlandırılıb.

Bəs dövlət başçısının səsləndirdiyi və iqtidar mediasının bir termin şəklində istifadə etməyə başladığı “flyuger” ifadəsinin mənası nədir?

Bilməyənlər üçün nəzərə çatdıraq ki, “flyuger” Niderland mənşəli “vleugel” sözündən yaranıb. Mənası “yelqovan”dır. Tarixdə gəmilərdə istifadə olunan bu alət küləyin istiqamətini müəyyənləşdirən cihazdır. Bu cihaz küləyin istiqamətinə doğru fırlanır, yəni külək hara əsirsə, o da həmin istiqamətdə gedir.

❑ **E.SEYİDAĞA**

# Yeni iş yerləri, yoxsa imitasiya?

## Ekspertlər bildirirlər ki, iş yerlərinin yaradılması üçün heç bir iqtisadi əsas yoxdur, hökumət isə fərqli rəydədir

**Ötən il ölkədə baş verən iki kəskin devalvasiya ciddi ixtisarlar və işsizliklə müşayiət olunsa da, hökumət fərqli düşünür. Bu ilin əvvəlindən bir sıra müəssisə və qurumlar yeni iş yerlərinin yaradılması barədə elanlar verirlər. Hətta iş yerlərinin yaradılması ilə bağlı anons yüksək səviyyədə səslənməkdədir. Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov bir neçə gün əvvəl mediaya açıqlamasında bildirib ki, 40 mindən artıq müxtəlif yöndə iş yerləri açılıb. “Yəni buraya həm dövlət, həm də özəl sektor daxildir. Bizə məlumat daxil olub ki, SOCAR tərəfindən 2 minə yaxın iş yerinin yaradılmasına dair qərar qəbul olunub. Bu faktın özü bir daha onu göstərir ki, insanların işlə təminatı asanlaşdırılır” deyə, nazir bildirib.**




Ekspertlər isə bildirirlər ki, əslində iqtisadi böhran o həddədir ki, iş yerləri kütləvi şəkildə qapadılır, eyni zamanda dövlət qurumları ciddi ixtisarlara gedir. Ancaq ölkədəki ajiotajı aradan qaldırmaq üçün yeni iş yerləri ilə bağlı xəbərlər gündəmə gətirilir. Yəni bu, hökumətin böhranın ölkəyə ciddi təsir etmədiyi barədə rəy yaratmaq üçündür.

**Ekspert Natiq Cəfərli məsələ ilə bağlı musavat.com-a bildirib ki, əslində çox qəribə bir situasiya yaranıb:** “Çünki həm dövlət başçısı, həm və bir çox nazirlər keçən ilin sonu bu ilin əvvəlində dövlət aparatında hətta birləşmələrin olacağını, ixtisarların baş verəcəyini, effektiv idarəetmə modelinə keçilməyin labüd olduğu haqqında açıqlamalar vermişdilər. Bu yöndə bəzi addımlar atıldı. Bəzi qurumlar ləğv olundu, bəziləri birləşdirildi. Doğru olan da bu idi əslində. İş yerlərinin itirilməsi çox ağrılı məsələdir. Nə qədər ağrılı olsa da, dövlət buna getməlidir. Həmçinin iş yerlərini itirən insanların başqa sahələrdə özlərini realizə etmək üçün şərait yaradılmalıdır. Dövlətin əsas işi bundan ibarətdir. Amma ixtisarların getdiyi məqamda nəsə baş verdi, yanaşma fərqi yarandı. Yəqin insanların kütləvi şəkildə işsiz olması sosial gərginliyin artırılmasına yönəlik bir addım kimi dəyərləndirildi. Artıq həm informasiya müharibəsi şəklində, informasiya ötürülməsi şəklində hər gün yeni iş yerləri ilə bağlı bir rəy yaratmağa çalışılır. Bildirilir ki, yeni iş yerləri yaranır, problem yoxdur, iş yerləri artacaq. Həm də çox güman ki, bəzi dövlət və hökumət qurumlarına tapşırıq verilib ki, insanların maaşlarının azaldılması yolu ilə başqaları da işə götürülsün. Çox güman ki, qənaət olunan pula müvəqqəti də olsa, iş yerlərinin yaradılması plan kimi qarşıya qoyulub. Göründüyü budur. Amma o da effektiv deyil. Dayanıqlı model deyil. Çünki son 15 ildə Azərbaycanda iş yerləri ilə bağlı yanaşma kökündən yanlış idi. Neft pullarına görə təmir-tikinti xərcləri artırılmışdı, təmir-tikinti xərcləri sözü ilə iş yerləri yaradırdı. Dövlət, hökumət aparatı şişirdilirdi. Yeni iş yerləri yaradılırdı. İndi biz bunun acısını çəkirik və çəkməkdə də davam edəcəyik. Düşünmürəm ki, belə müvəqqəti addımlarla müəyyən işləri inzibati qaydada həll etmək, bu problemi kökündən həll etmək mümkün olsun. Çünki iqtisadiyyatın öz qanunları var. İnzibati yolla, əmr yolu ilə iqtisadiyyatı idarə etmək mümkün deyil. Ola bilər, müvəqqəti olaraq bir neçə ay prosesi idarə etmək mümkün olsun, amma kommersiya şirkətlərində, özəl şirkətlərdə işsizliyin artmasının qarşısını necə ala bilərlər axı? Ancaq təşviq proqramları ilə vergi güzəştləri ilə bu işi edə bilər. Amma biz bunu da görmürük. Nə təşviq proqramları var, nə vergi güzəştləri var. Amma məsələn, dükanlar bağlanır, iş yerləri qapadılır, vizual olaraq Bakıda artıq açıq-aşkar görmək olar ki, nə qədər iş yerləri qapadılır. Bank sektorunda qapanma prosesi gedir, minlərlə insan işsiz qalır. Bank bağlanırsa, təbii ki, işsizlik artır. Ona görə də hökumət sovetdən qalan yanaşmanı kənara qoyub görüntü xatirinə işlər görməkdənsə, problemin köklü şəkildə həll olunmasına imkan yaratmalıdır. Bunun üçün bir proqram işləyib hazırlamalıdır. Söhbət ondan gedir ki, özəl sektorda kifayət qədər liberal və sərfedici bir şərait yaradılmalıdır ki, iş yerləri yaransın. Bunun üçün özəl vergi güzəştləri, gömrük güzəştləri olmalıdır. Gömrük tarifləri aşağı salınmalıdır. Azərbaycan dünyada bəlkə də nadir ölkələrdəndir ki, öz ölkəsində bir çox mallar istehsal olunmur, amma gömrük vergisi, rüsumu tətbiq edir. Bir çox problemlər həll olunmalıdır ki, iş yerləri problemi köklü həllini tapsın. İndi görünən vizual, müəyyən effekt yaratmaq üçün aparılan işlərdir. Bunun da heç bir ciddi təsiri olmayacaq”.

**Ekspert Rəşad Həsənov isə qeyd edib ki, iş yerlərinin yaradılması üçün heç bir iqtisadi əsas yoxdur:** “İqtisadi situasiya, heç nə dəyişməyib əslində. Yəni problemlər getdikcə dərinləşir və böhran öz təsirlərini göstərməkdədir. Xüsusilə də real sektorda çox ciddi durğunluq yaşanmaqdadır. Bunun nəticəsidir ki, hökumət devalvasiya xərclərini azaltmaq məqsədilə ciddi ixtisarlara gedir. Eyni zamanda bağlanan iş yerlərinin sayı artır. Bu proses gündən-günə dərinləşir. Bununla yanaşı olaraq, hökumət ictimaiyyəti sakitləşdirən mesajlar verməyə cəhd göstərir. Yeni yaradılan iş yerləri ilə bağlı xəbərlər yayılır. Əsas məsələ ondan ibarətdir ki Azərbaycanda kifayət qədər qeyri-leqal əmək bazarı var. Xüsusilə də bu, qeyri-neft sektorunda, biznesdə müşahidə olunur. Qeyri-leqal əmək bazarının potensialından bu gün hökumət müəyyən qədər istifadə etməyə cəhd göstərir. Bu məqsədlə də biznes və sahibkarlara Sosial Müdafiə Nazirliyinin, Əmək Müfəttişliyinin xətti ilə təzyiqlər etməklə rəsmiləşdirilən iş yerlərinin artırılması tələb edilir. Bu işlər də öz bəhrəsini verir. Faktiki olaraq iş yerləri sadəcə rəsmiləşdirilərək statistik göstərici yaradılır. Digər tərəfdən, müəyyən iş yerlərinin yaradılması bağlanmış iş yerlərinin hesabınadır. Mümkün qədər hökumət çalışır ki, sosial ağırlığı, böhranın təsirlərini balanslaşdırsın, minimuma endirsin. Buna görə də real, iqtisadi əsaslara söykənən addımlar atılmalıdır. Yeni açılan iş yerləri ilə bağlı açıqlanan fikirlər bu kimi amillərin nəticəsidir".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 37 (6358) 17 fevral 2016

# Onun arabası var, mələsəf saxlamağa yer isə...

## Bakıda sürücülərin əsas problemi: maşını harada və neçəyə park etmək olar?

**Paytaxt Bakı küçələrində günün müxtəlif saatlarında tıxaclar müşahidə olunur. Mərkəzi küçələrdə tıxaclardan çətinliklə də olsa çıxmağı bacaran sürücülər növbəti problemlə maşınları parklama zamanı qarşılaşırlar.**

Xatırlayırsınızsa, 2014-cü ilin əvvəllərinə qədər Bakıda yol kənarlarında, parkların və ticarət mərkəzlərinin ətrafında, hətta səkilərdə belə maşın saxlamaq mümkün idi və buna nəzarəti "əliçubuqlular" edirdi. 2014-cü ilin aprel ayında Nazirlər Kabinetinin iclasında çıxış edən prezident İlham Əliyev əlində çubuq parkinqlə məşğul olanların fəaliyyətinə irad bildirərək bu cür halların aradan qaldırılması ilə bağlı göstəriş verdi. Elə bu çıxışdan sonra Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən paytaxt Bakıda böyük sürətlə parkterminalların quraşdırılmasına başlanıldı. Həmin "əliçubuqlular"ın hamısı park-terminallara nəzarət edən standart formalı işçilərlə əvəz olundular.

İndi Bakının istənilən küçəsində, hətta ara məhəllələrdə belə parkterminallar görmək mümkündür. Lakin paytaxtdakı maşın sıxlığı bəzən sürücülərin ödənişli dayanacaqlarda belə yer tapmasına çətinlik yaradır. Ödənişli dayanacaqlardan kənarda saxlayan maşınlara isə evakuatorlar "qənim kəsilir".

Yol kənarlarında park-terminalların quraşdırıldığı ərazilərdən əlavə paytaxtın müxtəlif yerlərində böyük avtomobil dayanacaqları da var. Lakin sürücülər üçün bəzən bir neçə dəqiqəlik dayanacaqdan istifadə etmək zərurəti yaranır. Bu zaman isə böyük avtomobil dayancaqlarına üz tutmaq sürücülərin vaxt itkisi ilə nəticələnir.

Musavat.com-un əməkdaşı sürücülər üçün maraqlı olacağını nəzərə alaraq paytaxtdakı avtomobil dayanacaqlarının yeri və qiymətləri ilə bağlı araşdırma aparıb.

Əvvəlcə onu qeyd edək ki, son illər ərzində Bakıda tikilən yeraltı avtomobil dayancaqlarının hamısı dövlət büdcəsindən ayrılan vəsait hesabına tikilib. Lakin həmin dayanacaqlar özəl sahibkarlara icarəyə verilib. Buna görə də qiyməti sahibkarlar özləri müəyyən edir.

İlk olaraq parkterminallar olan ərazilərdə maşın saxlamaq üçün ödənilməli olan məbləği xatırladaq: ən azı 30 dəqiqə saxlayacaqsansa, 50 qəpik ödəyirsən *(1 saat - 1 manat, 2 saat - 2 manat, 3 saat - 3 manat və 4 saat - 4 manat).*

Şəhər mərkəzində əvvəl ən ucuz və ərazisi geniş olan dayanacaqlar "28 May" metrosunun qarşısında *(Cəfər Cabbarlı heykəlinin arxası)* və Dəmiryol Xəstəxanası ilə Bakı Dəmir Yolu Vağzalı arasında yerləşirdi. Sürücülər burada maşın saxlayarkən "əliçubuqlular"a 20-30 qəpik ödəniş edirdilər. Lakin sonradan bu ərazilərə də parkterminallar quraşdırıldı.











Hazırda Bakıda ən böyük yeraltı avtomobil dayanacaqları Azadlıq və Füzuli meydanlarının altındadır. 2013-cü ildə fəaliyyətə başlayan Azadlıq meydanının altındakı dayanacaqda qiymətlər 1 manatdan başlayır: 0-2 saat - 1 man; 2-5 saat - 2 man; 5-12 saat - 3 man; 12-24 saat - 6 man.

Apardığımız araşdırma zamanı məlum oldu ki, bu dayanacaq 24 saatlıq istifadəsi üçün ən ucuz qiymətə xidmət göstərən dayanacaqdır. Lakin bu dayanacağı digərlərindən fərqləndirən itirilmiş çekə görə cəriməsinin həddən artıq çox- 30 manat olmasıdır.

Heydər Əliyev Sarayı ilə Füzuli meydanı arasında olan yeraltı dayanacaqda qiymətlər Azadlıqdakı qiymətlərlə demək olar ki, eynidir. Lakin burada itirilən çekə görə cərimə 20 manatdır.

Bulvar ərazisində sürücülər avtomobil dayanacağı kimi "Park Bulvar" ticarət və əyləncə mərkəzinin dayanacağından və Bayraq meydanının yaxınlığında yerləşən dayanacaqdan istifadə edə bilər. Bayraq meydanının yaxınlığındakı geniş ərazidə ödəniş parkterminallar vasitəsilə həyata keçirilir.

"Park Bulvar"da avtomobil saxlamağın qiyməti 1 manatdan başlayır: 0-1 saat - 1 man; 1-3 saat - 2 man; 3-8 saat - 3 man; 8-12 saat - 6 man; 12-15 saat - 10 man.

Burada 24 saat avtomobil saxlamaq qadağandır. İlk 15 dəqiqəlik giriş pulsuzdur. Giriş çekinin itirilməsinin qarşılığında isə 10 manat cərimə tətbiq edilir.

"28 Mall" ticarət və əyləncə mərkəzinin altında fəaliyyət göstərən dayanacaqda isə parklamanın qiyməti belədir: 1 saat - 1 man; 1-3 saat - 2 man; 3-5 saat - 3 man; 5-7 saat - 5 man; 7-24 saat - 20 man.

Bu avtomobil dayanacağında təqdim olunan giriş çekini itirən müştərilər 20 manat cərimə olunur.

Bakıda, şəhərin mərkəzində fəaliyyət göstərən ən böyük avtomobil dayanacaqları sırasına Fəvvarələr meydanının yanındakı və Azərbaycan prospektindəki "Garage" avtomobil dayanacaqlarını aid etmək olar.

Bu dayanacaqlarda təklif olunan qiymətlər də digər dayanacaqlardan çox fərqlənmir: 0-1 saat - 1 man; 1-3 saat - 2 man; 3-6 saat - 3 man; 6-12 saat - 6 man; 12-24 saat - 10 man.

Bu dayanacaqların hər birindən uzunmüddətli istifadə etmək istəyən müştərilərə güzəşt edilir.

"Metro Park" ticarət mərkəzinin dayanacaqlarından istifadənin qiyməti də 1 manatdan başlayır. İlk 30 dəqiqə müştərilər üçün pulsuzdur. 0-2 saat - 1 man; 4 saata qədər- 2 man, 8 saata qədər - 3 man, 12 saata qədər 4 man, 24 saat- 5 man. İtirilən çekə görə cərimə isə 10 manatdır. Bu dayanacağın bir hissəsi 24 saat fəaliyyət göstərir. Burada 24 saatlıq xidmət üçün alınan məbləğ digər dayanacaqlara nisbətən sərfəlidir.

Sadaladığımız dayanacaqlardan başqa Bakının mərkəzində ara küçələrə nəzər yetirərkən məlum olur ki, sürücülər daha çox qeyri-rəsmi fəaliyyət göstərən bu dayanacaqlara üstünlük verir. Buna səbəb isə qiymətlərin ucuz olmasıdır. Ara küçələrdə səhərdən axşamadək maşın saxlamaq üçün ödənilən maksimum məbləğ 1 manatdır. Bir neçə saatlıq parklama isə 20 qəpikdir. Bu da azgəlirli sürücülər üçün ən sərfəli seçimdir.

❑ **İlkin MURADOV**

**Fotolar müəllifindir**


**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**





# "Nar" yeni "eNəzarət" xidmətini təqdim etdi

## "Nar" abunəçiləri artıq öz hesablarına daha rahat nəzarət edəcəklər

**"Nar" öz abunəçilərinə balanslarını asanlıqla yoxlamaq və idarə etmək imkanı yaradan "eNəzarət" innovativ xidmətini təqdim etdi. "eNəzarət" xidməti hər hansı bir internet səhifəsinə daxil olduqda, istifadə edilən cihazın ekranında ortaya çıxaraq, abunəçiyə balansındakı məbləğə və internet trafikinə nəzər yetirmək, balansı artırmaq, eləcə də internet paketini aktivləşdirmək imkanı verir.**

**"Nar" nömrəsi və ya modemi ilə internetə qoşulan istənilən smartfon, planşet və kompüterlərdə "eNəzarət" xidmətindən yararlanmaq mümkündür. "eNəzarət" xidməti HTTP tipli hər hansı bir sayta daxil olduqda, ekranın sağ tərəfində ortaya çıxır. Tamamilə ödənişsiz olan bu xidmətdən yararlanmaq üçün abunəçi daxil olduğu internet saytında "Nar" loqosuna toxunmalıdır. Bu zaman istifadəçi "eNəzarət" xidmətinin əsas səhifəsinə keçə bilər. Əsas səhifəyə daxil olmuş "Nar" abunəçisi "Nar" nömrəsinin balans məlumatlarını və internet trafikinin qalığını öyrənə, balansını artıra, internet və seçdiyi internet paketini sifariş edə bilir.**

**"eNəzarət" xidmətindən istifadə qaydaları haqqında daha ətraflı məlumatı aşağıdakı keçid vasitəsilə əldə etmək olar:**

**https://www.youtube.com/watch?v=5GIA0SryEHQ**


**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**


**Elan**

**Azərbaycan Respublikası Veteranlar Birliyindən Eyvazov Bəhman İlyas oğluna verilmiş vəsiqə itdiyi üçün etibarsız sayılır.**

# "Lotu Cavanşir"in məhəlləsində bir gün...




**"XIX əsrin sonlarından etibarən Bakıda neft sənayesinin inkişaf etməsi bura bölgələrimizlə yanaşı, müxtəlif ölkələrdən də gələnlərin sayının artmasına səbəb olub. Həmin zamanlar Bakıya sadəcə iş üçün gələnlər sonradan burada məskunlaşaraq daimi sakinlərə çevriliblər. Bu gün də Bakıda bəzi məhəllələr var ki, ora gəlmələrin adı ilə tanınır. Misal üçün, "Dağlı məhəlləsi". "Dağlı məhəlləsi"ndə olduğumuz zaman oranın ağsaqqallarından məhəllə ilə bağlı bir çox tarixi hadisələri öyrənib, bu gününü isə gözlərimizlə gördük.**

### Köhnə "dağlı məhəlləsi"

Dağlılar Bakıda artıq bir əsrdən çoxdur ki, məskunlaşıblar. Bakıya köçüb gələnlər paytaxtın qərbində, onun yuxarı hissəsində böyük sahəni əhatə edən "Dağlı məhəlləsi"ni salıblar.

Hazırda "Dağlı məhəlləsi" adlandırılan ərazi Yasamal rayonunda yerləşsə də, Bakıya gələn ilk dağlıların məskən saldıqları ünvan bura olmayıb. Bunu məhəllədə "Dağlı Kərim"dən öyrəndik. O bildirdi ki, 1900-cü illərdən etibarən Xızı-Bərmək mahalının əhalisi ticarət məqsədi ilə Bakıya, Tiflisə, Moskvaya və başqa böyük şəhərlərə gedib-gəliblər: "Həmin zamanlar Bakıda da neft çıxdığı üçün fəhlələrə ehtiyac çox olub. Ona görə Xızıdan gələnlərin bir qismi daimi iş yeri üçün burada qalmalı olublar. Bura deyəndə Xızı və Bərməkdən gələnlər ilk olaraq köhnə "Cəfər Cabbarlı" adına kinoteatrın arxasında məskunlaşıblar. Getdikcə ərazidə Xızıdan gələnlərin sayı çoxaldığı üçün oranın adını "Dağlı məhəlləsi" qoyublar. Yəni dağlıq yerdən gələnlərin yaşadığı yer mənasında. 1954-cü ildən etibarən isə dağlılar oradan indiki məhəlləyə köçürülüblər. Sonradan buranın da adı "dağlı məhəlləsi" adlanıb".





Dağlıların ləhcələri də Bakı camaatının ləhcəsindən xeyli fərqlənir. Özləri bildirdilər ki, bu, onların Bərmək mahalından gəlmələri ilə əlaqədardır. Bərməkdən gələnlərdə daha çox iranlıların ləhcəsi hiss olunur. Eyni zamanda onu da öyrəndik ki, hazırda hündür evlər tikilən məhəllədə keçmişdə dağlılar vaqonlarda, üstü qırlı evlərdə yaşayıblar. Bu da onunla əlaqəli olub ki, əvvəla, o zamanlar bu ərazilərdə heç bir tikili olmayıb. Eyni zamanda həmin vaxtlarda Bakı çox küləkli olduğu üçün əksər evlərin üstünü qırlamaq məcburiyyətində qalıblar. Elə indi də məhəllədə gəzdiyimiz zaman üstü qırlı qədimi evlərin olduğunu gördük. Bu gün isə məhəllədə xeyli sayda hündür evlər, villalar var ki, köhnə dağlılar bundan heç də razılıq etmirlər. Bizimlə maraqlı söhbət edən, lakin adını açıqlamayan bir dağlı ağsaqqaldan da keçmişlə bağlı xeyli hadisələri öyrəndik. Adını açıqlamamasının səbəbi kimi söylədi ki, o da daxil olmaqla, nəsilləri keçmişdə "çekist" olub. Ona görə də adını söyləmədi.





Arxiv



Arxiv

## "Dağlı məhəlləsi"nin yazılmamış qanunları haqda:
## "Heç bir kişi öz xanımı ilə qol-qola buradan keçə bilməzdi"

### "Dağlı məhəlləsi"nin adətləri

**Müsahibimiz bildirdi ki, keçmişdə bu məhəllədən ancaq dağlılar və onlarla qohum olanlar keçə biliblər. Bura milis (indiki polis) də daxil olmaqla, heç bir yad adam girə bilməyib. Ancaq dağlıların özləri də öz məhəllələrində istədikləri kimi gəzməyiblər. Onlar üçün də müəyyən qayda-qanunlar mövcud olub:** "Keçmişdə məhəllə uşaqları buradan möhkəm səslə gülüb, hündürdən danışaraq keçə bilməzdilər. Eyni zamanda heç bir kişi öz xanımı ilə qol-qola buradan keçə bilməzdi. Burada ən pis baxılan iş isə qız qaçırmaq olub. Adət belə olub ki, ağsaqqal qabağa düşüb, gedib qızı istəyərdi. Kənar yerə qız verib, qız alanda da məhəllənin qaydalarına əməl etməli idilər. Həmçinin burada heç bir qapının qıfılı yox idi. Hamı qapını açıq qoyardı. Ona görə də heç bir milis işçisini məhəlləyə buraxmazdıq. Məhəllənin öz lotuları olublar ki, onlar buranı idarə ediblər. Misal üçün, "Lotu Cavanşir"".

***Bizim tanıtım:*** *Cavanşir Ağayev 1967-ci ildə anadan olub. Əslən Xızıdan olduğu üçün oğru aləmində "Dağlı Cavanşir" kimi tanınıb. Yasamalda 21 saylı orta məktəbdə təhsil alıb. "Dağlı Cavanşir" 1982-ci ilin aprelində ilk məhkumluğunu yaşayıb, 6 il müddətində azadlıqdan məhrum edilib. Cəzasını əvvəlcə Bakı, sonra isə Qroznı şəhərindəki uşaq-islah əmək müəssisəsində, həddi-buluğa çatandan sonra isə ciddi rejimli kolonda çəkib. Ən gənc "oğru" adını alanlardan olub. "Lotu Cavanşir" 22 mart 1995-ci ildə Bakıda Yasamal ərazisində hüquq-mühafizə orqanları tərəfindən güllələnərək öldürülüb.*

**Müsahibimiz bildirir ki, bir dəfə məhəllədə gəlmə bir ailənin evi yarılıb. Evin yiyəsi olan qadın da bundan hiddətlənərək, çıxıb qışqıraraq söyləyib ki, burada kişi yoxdur:** "Bu söhbət gedib Cavanşirə çatıb. Cavanşir həmin qadını çölə çağırıb deyib ki, ana, bu sözü deməklə yaxşı etməmisən. O da deyib ki, elədirsə, get tap görək evimi yaran kimdir. Heç bir gün keçməyib Cavanşir birinin qulağından tutub gətirib. Deyib, bu, evi yarılanın yeznəsidir. Evi də bu yarıb. Gedib həmin qadına deyib ki, ana, dərdini söyləməmiş bir də belə fikir bildirmə. Bu məhəllədə həmişə yaxşı kişilər olub. Cavanşirə "lotu" adını da Moskvada veriblər. Orada qolu güclü birinin qarşısına çıxıb. Onu qaldırıb çırpıb yerə. Yaxşı güləşçi idi. Ona görə də deyiblər ki, bu adam hamıya güc gələnin qabağına belə çıxdısa, lotu adına layiq görülməlidir. Həmin hadisədən sonra ona "Lotu Cavanşir" deyə xitab ediblər. Onu da deyim ki, bura heç bir qanun adamı girə bilməzdi. Onu güllə ilə vurardılar. Yadımdadır ki, bir dəfə məhəlləyə su çəkirdik. Su xətləri artıq Cavanşirgilin evinə çatırdı. Həmin zaman polis kapitanı olan bir qonşum da vardı. O yaxınlaşıb uşaqlara pul verdi ki, araq alıb içsinlər. Cavanşir bunu görüb qaçdı evə silahını götürməyə ki, heç bir poqonlu evimə yaxınlaşa bilməz. Dedilər ki, a kişi, məhəllə uşağıdır. O da qayıtdı ki, gəlməsin, vuracağam. Yəni o dövrdə vəziyyət belə idi. Cavanşirin vaxtında burada heç bir narkoman da olmazdı. Kim o işlə məşğul olardısa, məhəllədən getməli idi".

### Toy adəti

Dağlıların toy adətləri də fərqli olub. Burada yeni evlənən şəxs uzun müddət məhəllənin ağsaqqallarının gözünə görünməzmiş. Misal üçün, öyrəndik ki, "dağlıların Lenini" hesab olunan "Lotu Muğbil" evləndikdən sonra bir müddət ağsaqqalların gözünə görünməmək üçün evinə ya çox gec gəlib, ya da məhəlləni fırlanaraq xeyli uzaq bir yoldan gələrmiş.

Yasa gəlincə isə burada 40 gün yas saxlanılar, yas yiyəsi isə həmin günlərdə saqqal saxlayarmış.

Hazırda məhəllədə sadalanan adətlər mövcud olmasa da, o dövrdən qalma bəzi nüanslara rast gəlmək olur. Misal üçün, indi də bəzi dağlılar qoyun, quzu, toyuq, göyərçin, hətta inək və camış saxlayırlar. Dağlılar bildirdilər ki, onlar bura gəldikləri ilk zamanlar təndir çörəyi bişirib satıb, eləcə də bu kimi ev heyvanları saxlayıblar. Söhbət etdiyimiz ağsaqqallar bildirdilər ki, indi gəlmələr haradan gəldi ev tikirlər. Bunu da yaxşı hal kimi qiymətləndirmirlər. Onlar bildirirlər ki, bir ev yansa, yanğın söndürən maşının bura girməyə yeri yoxdur. Yəni evlər o qədər sıxdır. Müşahidələrimiz nəticəsində biz də onların söylədiklərinin əyani şahidi olduq.

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
Son səhifə
N 37 (6358) 17 fevral 2016



# Xoşbəxt olmaq üçün 8 tövsiyə

1. Əyləncəli bir film izləyin, ya da internetdə gülməli bir sayta daxil olun.

2. Yoqa ilə məşğul olun. Hər gün olmasa da, ayın15 gününün 15 dəqiqəsini yoqa ilə məşğul olun.

3. Heç “5 dəqiqəni özünə ayır”, - deyə bir şey eşitdinizmi? Sadəcə, 5 ya da 10 dəqiqənizi özünüzə ayırın. Özünüzü düşünmək üçün ən yaxşı zaman səhər tezdəndi.

4. Rahat olmaq istəyirsinizsə, sevdiyiniz musiqini qoyun və o musiqi altında rəqs edin.

5. Özünüz üçün dəftər tutun və orda nə düşündüyünüzü yazın - hətta xəyal etdiyiniz arzuları da.

6. Həftə ərzində daxil olan mesajları təmizləyin. Maili təmizləmək sizi rahatladacaq.

7. Təmiz hava qəbul edin. Təmiz hava insanın beynini sakitləşdirir və gün ərzində olan hadisələri sağlam düşünməyə şərait yaradır.

8. Rahat və sakit olmaq xoşbəxt və sağlam yaşamanın açarıdır. Xoşbəxt olduğunuz üçün utanmayın, bunu dostlarınızla və iş yoldaşlarınızla bölüşün.

# 16 nəfərin qoruduğu uşaq

**Facebook sosial şəbəkəsinin qurucusu olan Mark Zukerberq qızının doğumundan sonra evinə daha çox təhlükəsizlik xidməti əməkdaşı yerləşdirməyə qərar verib. Onun dəyəri 7 milyon dollar olan evini və qızını hazırda 16 nəfər qoruyur. 31 yaşlı biznesmen sosial media canilərindən qorxduğunu dilə gətirib.**

Facebook qurucusunun son zamanlarda çox narahat olduğu haqda Amerika mediasında da yazılar dərc edilmişdi. Texnologiya jurnalı olan “Page six”ə müsahibə verən Zukerberq “Bəzi facebook istifadəçiləri tərəfindən təhdid edilirəm” deyib.



# Başqasının ürəyi ilə 33 il yaşadı

**33 il başqasının ürəyi ilə yaşayan ingilis Con Kaferti böyrək xəstəliyinə görə 73 yaşında həyatını itirib. Con Kaferti köçürülmüş ürəyi ilə marafon belə qaçıb. İngiltərədə 33 il əvvəl ürək köçürülən C.Kaferti nəql edilmiş ürəklə ən uzun müddət yaşayan şəxs olaraq 2013-cü ildə “Ginnesin rekordlar kitabı”na düşüb. Həkimlər 1982-ci ildə onun ən çox 5 il yaşaya biləcəyini demişdilər. Lakin Kaferti 33 il sonra ürək çatışmazlığından deyil, böyrək xəstəliyindən həyatını itirib.**

Kaferti ürək əməliyyatından sonra həyat yoldaşı Anna ilə birlikdə dünyanın bir çox ölkəsini gəzib. Səhhətinin riskli olduğunu düşünmədən həyatını maraqlı şəkildə yaşamağa davam edib. Avropada və İngiltərədə marafon yarışlarında iştirak edib. O, həyatı haqqında danışarkən “hər sabah oyanıram və yeni bir gün daha yaşaya bilərəm deyə, düşünürəm” deyirdi.






# 100 il sonrakı dünya

**Alimlər 100 il sonra texnoloji vasitələrlə çəkilən filmlərin gerçək ola biləcəyini düşünürlər. Amerikanın "SmartThinf" adlı texnologiya şirkəti “gələcəkdə həyat” adlı araşdırma yazısı hazırlayıb. Yazıda tibb və texnologiya inkişaf etdikcə insanların ömrünün də hər 10 ildən bir artacağı deyilir. Yazını hazırlayanlardan biri - Maggie Adren-Pocock 2116-cı ildə həyatımızda olacaq dəyişikliklərin siyahısını hazırlayıb:**

Göydələnlər daha da artacaq.

Su altında böyük şəhərlər qurulacaq.

İnsanlar evlərini istədikləri hər yerə daşıya biləcəklər. Yeni tip evlər “drone” adlanacaq.

3D printerlərin köməyi il hər kəs evini və əşyalarını hazırlaya biləcək.

Mars və Ayda koloniyalar salınacaq. Kosmik tətil hər kəs üçün adiləşəcək.




QOÇ - Ulduzların düzümü xoş məqamların şahidi olacağınızı bəyan edir. Lakin bu kimi şansları qaçırmamaq üçün özünüz də aktivlik göstərməlisiniz. Əgər daxilinizdə paxıllıq və eqoistlik varsa, dərhal ondan təmizlənin.

BUĞA - Hiss olunur ki, qismən kasıb dövr yaşamaqdasınız. Amma darıxmağa lüzum yoxdur. Ən azı ona görə ki, Göy qübbəsi bu gündən maddi durumunuza müsbət təsir göstərəcək. Əsas vaxtınızı yalnız bu amilə ayırın.

ƏKİZLƏR - Astroloji göstəricilər saat 12-dək səhhətinizlə bağlı problemlərin yaranacağını bildirir. Odur ki, orqanizminizə uyğun olmayan işlərdən uzaq olun. Sonrakı saatlarda isə çoxsaylı sürprizlərlə rastlaşacaqsınız.

XƏRÇƏNG - Maliyyə problemlərinizin artdığı bu ərəfədə özünüzü üzməməlisiniz. Çünki bu, qısa zamanı əhatə edəcək. Nahardan sonra köhnə dostlarınızın köməyi ilə mövcud çətinliklərinizi dəf edəcəksiniz.

ŞİR - Saat 11-13 aralığı sizin üçün bir qədər mübahisəli keçə bilər. Odur ki, maksimum təmkin nümayiş etdirməyiniz vacibdir. Günün qalan hissəsini isə normal şəkildə başa vuracaqsınız. Axşam qonaq getməyiniz yaxşı olar.

QIZ - Nahar saatlarını neytral şəkildə başa vurmağa çalışın. Çünki göstərilən ərəfədə müəyyən xoşagəlməzliklər baş verə bilər. Xüsusən də pulla bağlı söhbətlərdə ehtiyatlı olun. Günün qalan hissəsi qismən düşərlidir.

TƏRƏZİ - Astroloji göstəricilər bu günə böyük ümidlərlə yanaşdığınızı bəyan edir. Konkret olaraq saat 14-dən bütün sahələrdə uğurlarınız mümkündür. O vaxta qədərsə əsas enerjinizi münasibətləri yaxşılaşdırmağa yönəldin.

ƏQRƏB - Bu tarix çoxları kimi sizin də taleyinizdə əsaslı rol oynayacaq. Saat 11-14 aralığında gözlənilməz təsadüf nəticəsində mövcud problemləriniz aradan qalxmağa başlayacaq. O vaxta qədərsə yarımçıq problemlərinizi aradan qaldırmağa çalışın.

OXATAN - Ümumi məziyyətlərinə görə düşərli gün hesab etmək olar. Bir tərəfdən maraqlı insanlarla görüşləriniz, digər tərəfdənsə şəxsi işlərinizdə baş qaldıran müsbət dönüş sizi sevindirəcək.

OĞLAQ - Sağlıq durumunuz imkan versə, paralel olaraq bir neçə işin öhdəsindən gələ biləcəksiniz. Şəxsi həyatınıza hakim kəsilən problemlərə də işıq düşəcək. Bu gün qonaqlıqlar, birgə gəzinti və səfərlər sizə yalnız ruh yüksəkliyi gətirə bilər.

SUTÖKƏN - Yeni əlaqələrə başlamaq üçün konkret addımlar atmağa dəyər. Amma hansısa məsələyə görə ciddi məbləğdə xərc çəkməyə lüzum yoxdur. Rəhbərliklə münasibətləri mülayimləşdirin.

BALIQLAR - Fevralın bəxtinizə düşən ən uğurlu günü yetişməkdədir. Nəzərə alın ki, artıq aparıcı bürc kimi şanslarınız da artmaqdadır. Bunu özünüz də hiss edəcəksiniz. Xüsusən də fəaliyyətlə bağlı uğurlu məqamlarınız artacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 2 yaşlı uşağa “cadugər” dedilər



**“Bu uşağı ailəsi, anası cadugər sayaraq küçəyə atmışdılar. Oğlan acından və susuzluqdan ölmək həddində idi. Ona su, azacıq yemək verdik və ölümdən xilas etdik”. Nigeriyada humanitar-xeyriyyə missiyasının rəhbəri Anya Ringgen Lovenin dediyinə görə, oğlana Houp adını verib. Milli.az bildirir ki, Houp indi Lovenin oğulluğa götürdüyü övladı sayılır. Uşaq küçədə tapılanda o, ayaq üstə güclə dururmuş və bütün bədənini qurd basıbmış. Lovenin sözlərinə görə, Houpu ölümdən xilas etmək üçün onun qarnındakı qurdlardan qurtulmaq məqsədilə uşağa dərman verilib, qan vurulub. Anya Loven “African Children’s Aid Education and Development Foundation”a başçılıq edir.**

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Nazim SABİROĞLU
“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.300